QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



**“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir**

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 144 (5375) 12 **avqust** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanda tütünçülüyün inkişafına dövlət dəstəyi gücləndirilir

*Prezident İlham Əliyev imzaladığı Sərəncamla “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı” qəbul edilib*



Səh 2

5

**Çinin nüfuzlu “CCTV-4” kanalının Naxçıvanda çəkilişi başa çatıb**



6

**“Sahil” metrostansiyası bağlanmasıdan sonra nə baş verəcək?**



8

**Latviya səfiri Bilik Fondunda oldu**



# Azərbaycanda tütünçülüyün inkişafına dövlət dəstəyi gücləndirilir

*Prezident İlham Əliyev imzaladığı Sərəncamla "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" qəbul edilib*



***Azərbaycanda tütünçülüyün elmi əsaslarla inkişafı və bu sahə üzrə yüksək sənaye potensialının yaradılması XX əsrin 70-ci illərinin başlanğıcına təsadüf edir. Həmin illərdə həyata keçirilən uğurlu aqrar siyasət nəticəsində, Azərbaycanda tütünçülüyün çox sürətlə inkişaf etməsi, bu sahənin böyük sənaye potensialının yaradılması, tütünçülüyün elmi bazasının gücləndirilməsi hesabına 1970-1980-ci illərdə tütünün əkin sahəsi 17 min hektar, istehsalının həcmi isə 60 min tondan çox olmuşdur.***

Lakin son 10 ildə bəzi ənənəvi kənd təsərrüfatı sahələrində, o cümlədən, tütünçülükdə də tənəzzül müşahidə olunub. Belə ki, 2016-cı ildə tütünün əkin sahəsi 2,4 min hektar, istehsal həcmi isə 3,6 min ton təşkil etmişdir ki, bu da sahənin potensial imkanlarından xeyli aşağıdır. Ölkənin dağlıq və dağətəyi rayonlarının torpaq-iqlim şəraiti tütün sənayesinin tələbatına uyğun, beynəlxalq standartlara cavab verən keyfiyyətli tütün yetişdirilməsinə və ildə 50-60 min ton tütün istehsal olunmasına imkan verir.

Tütünçülüyün hüquqi, təşkilati və iqtisadi əsaslarının müəyyən edilməsi, tütün və tütün məhsullarının dövriyyəsi ilə əlaqədar münasibətlərin tənzimlənməsi məqsədilə "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının 2001-ci il 8 iyun tarixli 138-IIQ nömrəli Qanunu qəbul edilib. Son illər kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştlər və subsidiyalar, həmçinin, bu sahədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin 2019-cu ilədək torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad edilməsi ölkədə tütünçülüyün inkişafına təkan verib.

Bununla yanaşı, ölkədə tütünçülüyün inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi və tütün istehsalı ilə məşğul olan əhalinin sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 oktyabr tarixli 2366 nömrəli Sərəncamına əsasən, tütün emalı ilə məşğul olan hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslərə təhvil verilmiş quru tütünün hər 1 kiloqramına, yaş tütünün isə hər 10 kiloqramına görə tütün istehsalçılarına 0,05 manat məbləğində subsidiya müəyyən edilib.

Eyni zamanda, Prezident İlham Əliyev tütünçülüyün inkişaf etdirilməsi, tütün emalı sahəsinin dərinləşdirilməsi, bu sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammala olan tələbatının yerli məhsul istehsalı hesabına təmin olunması, gəlirliliyin və ixrac potensialının artırılması, kənd əhalisinin məşğulluğunun yüksəldilməsi məqsədi ilə imzaladığı Sərəncamla "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı" da qəbul edilib.

Qeyd edək ki, Dövlət Proqramı ölkədə bu istiqamətdə aparılan işlərin daha da sürətləndirilməsinə təkan verəcək. Çünki Dövlət Proqramının məqsədi tütün və tütün məmulatına olan tələbatın ödənilməsi, tütün emalı müəssisələrinin fəaliyyətinin genişləndirilməsi və müasir texnologiyalar əsasında yeni müəssisələrin yaradılması, xammal təminatının yaxşılaşdırılması, tütünçülük məhsullarının ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün ölkədə tütünçülüyün inkişafını stimullaşdırmaqdan ibarətdir. Məhz bu məqsədə nail olmaq üçün tütünün istehsalı, ilkin emalı və son məhsulun ölkədə istehsalının genişləndirilməsi, tütün əkini sahələrinin genişləndirilməsi və məhsuldarlığın artırılması, yeni məhsuldar, keyfiyyətli və xəstəliyə davamlı tütün sortlarının yaradılması, tütün toxumçuluğu təsərrüfatlarının yaradılmasının dəstəklənməsi, tütünçülüyün infrastruktur təminatının yaxşılaşdırılması, tütünçülüyün elmi təminatının və kadr potensialının daha da gücləndirilməsi, tütün istehsalı və emalı sahəsində innovativ texnologiyaların tətbiqinin dəstəklənməsi, tütün istehsalı və emalı sahələrinə yerli və xarici investisiyaların cəlb edilməsinin təşviqi, tütünçülük məhsullarının ixracının təşviqi, idxaldan asılılığın minimum səviyyəyə endirilməsi, tütünçülük məhsulları istehsalı ilə əlaqəli sahələrin inkişafının dəstəklənməsi, 2021-ci ilədək orta məhsuldarlıq 20 sentner/hektar olmaqla, əkin sahələrinin 6000 hektara, tütün istehsalının 12 min tona çatdırılmasına nail olunması kimi mühüm vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur.

Bir sözlə, Dövlət Proqramının həyata keçirilməsi Azərbaycanda tütünçülük ənənələrinin bərpa olunmasına, tütün emalı müəssisələrinin xammala olan tələbatının daxili istehsal hesabına ödənilməsinə, bölgələrin aqrar-sənaye potensialının artırılmasına, xüsusilə, regionlarda yaşayan əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, tütün və tütün məmulatı üzrə idxaldan asılılığın azaldılmasına, tütün və tütün məmulatı məhsullarının ixracının və tütünçülüklə bağlı digər sahələrin inkişafına mühüm töhfə verəcək.

***"Səs" Analitik Qrupu***

## Prezident İlham Əliyev yüngül atletika üzrə dünya çempionu Ramil Quliyevi təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev Ramil Quliyevi yüngül atletika üzrə dünya çempionu olması münasibəti ilə təbrik edib. Dövlət başçısının məktubunda deyilir: "Əziz Ramil. İlk növbədə səni yüngül atletika üzrə dünya çempionu adını qazanmağın münasibətilə səmimi qəlbdən təbrik edirəm. Qeyd etmək istərdim ki, tarixdə ilk dəfə olaraq azərbaycanlı idmançı yüngül atletika üzrə dünya çempionu olub. Xüsusilə sevindirici haldır ki, sən qələbədən sonra Azərbaycan və Türkiyə bayraqlarını qaldırdın. Bu, onu göstərir ki, sən öz xalqına bağlı, vətənpərvər insansan. Sən bu gün Türkiyəni təmsil edirsən. Ancaq idmanda ilk addımlarını Azərbaycanda atmısan. Bu qələbə münasibətilə Türkiyəni də təbrik edirəm. Sənin qələbən, eyni zamanda, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının növbəti təzahürüdür. Biz Azərbaycanda səninlə fəxr edirik. Sənə idmanda yeni qələbələr arzulayıram".

## Rəcəb Tayyib Ərdoğan Ramil Quliyevə təbrik teleqramı göndərib

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Londonda keçirilən yüngül atletika üzrə dünya çempionatında qızıl medal qazanan Ramil Quliyevi təbrik edib. SİA-nın məlumatına görə, bu haqda Türkiyə prezidentin rəsmi saytı məlumat yayıb. Bildirilir ki, R.T.Ərdoğan dünya çempionatında birinci yeri tutan Ramil Quliyevə teleqram göndərərək ona təbriklərini çatdırıb.

Xatırladaq ki, Türkiyəni təmsil edən həmyerlimiz R.Quliyev 200 metr məsafəyə qaçışda finişə 20.09 saniyəyə birinci çatmaqla dünya çempionu adını qazanıb.

# Naxçıvan əhalisinin Bakı ilə dəmir yolu vasitəsilə asan əlaqəsi təmin olunacaq

## *Heydər Əliyev Beynəlxalq Aeroportuna, "Şahdağ" və "Qəbələ" turizm mərkəzlərinə dəmir yolu xətlərinin çəkilməsi planlaşdırılır*

***Dünyada davam edən iqtisadi və maliyyə böhranına baxmayaraq, Azərbaycan iqtisadiyyatının bütün aparıcı sahələrində, xüsusilə də, qeyri-neft sektorunda köklü dəyişikliklər baş verir. Azərbaycan iqtisadiyyatının vacib sahələrindən olan nəqliyyat sisteminin təkmilləşdirilməsi və nəqliyyat müstəqilliyinin genişləndirilməsi istiqamətində davamlı və məqsədyönlü iş aparılır. Ölkənin digər nəqliyyat növləri ilə yanaşı, dəmir yolu nəqliyyatı da, demək olar ki, yenidən qurulur.***



Qeyd edək ki, Azərbaycan dəmir yollarında mövcud infrastrukturun yenilənməsi istiqamətində son iki ildə təxirəsalınmaz tədbirlər həyata keçirilir. Bu müddət ərzində, ümumilikdə, 383 kilometr dəmir yolu əsaslı təmir olunub, kontakt şəbəkə üzrə əsaslı təmir və yenilənmə işləri aparılıb, 153 dəst yeni yoldəyişən qurğu alınıb. Bakı-Böyük Kəsik sahəsində yolun enerji təchizatı sisteminin sabit cərəyandan dəyişən cərəyana keçirilməsi üçün yarımstansiyalarda tikinti işləri başa çatdırılıb, kontakt şəbəkə üzrə yenilənmə və dəyişikliklər, rabitə və işarəvermə sisteminin təkmilləşdirilməsi işləri aparılır. Hazırda Asiya İnkişaf Bankının ayırdığı maliyyə yardımı hesabına Fransanın "Sistra" məsləhətçi şirkəti tərəfindən Bakı-Yalama dəmir yolu xətti üzrə yolun əsaslı təmiri və eləcə də, Dünya Bankı tərəfindən maliyyələşdirilən "Dəmir yolu Ticarətinin Dəstəklənməsi Layihəsi" çərçivəsində, bütövlükdə, Yalama-Astara marşrutu üçün texniki-iqtisadi əsaslandırma hazırlanır.




Eyni zamanda, 2015-ci il sentyabrın 12-də 84 kilometr uzunluğu olan Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən sürətli elektrik qatarı istifadəyə verilib. Ötən 19 ay ərzində bu qatardan artıq 1 milyon 375 min vətəndaş istifadə edib. Hazırda 98 kilometr uzunluğu olan Bakı-Pirşağı-Sumqayıt dəmir yolunun təmiri aparılır ki, bunun nəticəsində Bakı-Biləcəri-Sumqayıt-Pirşağı-Bakı dairəvi dəmir yolu sərnişinlərin istifadəsinə veriləcək.

Azərbaycan dəmir yollarının beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiya olunması üçün müvafiq infrastrukturun yaradılması istiqamətində də lazımi tədbirlər görülməkdədir. Bakı-Tbilisi-Qars dəmir yolunun artıq bu il istismara verilməsi planlaşdırılır. Layihə çərçivəsində Gürcüstan ərazisində, Türkiyə sərhədinə qədər, ümumilikdə, 183 kilometr, o cümlədən, 30 kilometr uzunluğunda Qars-Axalkalaki yeni dəmir yolunun inşası, Axalkalaki stansiyasında vağzal və təkər cütlərinin dəyişdirilməsi kompleksinin və 4450 metr uzunluğunda tunelin inşası reallaşdırılıb. Gürcüstan ərazisində Türkiyə sərhədinə qədər sınaq qatarının hərəkəti təmin edilib. Hazırda Türkiyə ərazisində layihənin tamamlanması istiqamətində işlər sürətləndirilib.

Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat marşrutları çərçivəsində Azərbaycan və İran dəmir yollarının birləşdirilməsinə dair işlər də qısa müddət ərzində başa çatdırılıb. Görülən işlər nəticəsində, ümumilikdə, 16 kilometrdən çox dəmir yolunun və Azərbaycan-İran sərhədində, Astara çayı üzərində 82,5 metr uzunluğu olan körpünün tikintisi tam yekunlaşdırılıb, 2017-ci il martın 3-də ilk sınaq qatarı inşa edilən körpüdən keçərək İran ərazisinə daxil olub. İran ərazisində 1,4 kilometr uzunluğunda yolun və yük terminalının inşası isə hazırda davam edir. Dəmir yolu infrastrukturunun yenilənməsi yaxın gələcəkdə sərnişin qatarlarının sürətini saatda 100 kilometrə, yük qatarlarının orta sahə sürətini saatda 60 kilometrə çatdırılmasını mümkün edəcək.

Respublikanın tranzit potensialının artırılması məqsədi ilə Azərbaycan Dəmir Yolları ölkəmizin digər nəqliyyat strukturları ilə birgə, artıq bir neçə iri beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Ötən ilin sonunda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Assosiasiyası yaradılıb, marşrutda vahid qiymətlər və vahid pəncərə sistemi tətbiq olunub. Hazırda Şərq-Qərb dəhlizində alternativ marşrutların hazırlanması istiqamətində işlər aparılır. Çinin cənub rayonlarından Avropaya nəql olunan yüklərin Qırğızıstan, Özbəkistan və Türkmənistandan keçməklə Azərbaycana və daha sonra Avropa ölkələrinə daşınmasını nəzərdə tutan yeni marşrutun yaradılması istiqamətində danışıqlar aparılır.



Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bu ilin əvvəlindən nəqliyyat sektorunda da yaxşı nəticələr var: "Xüsusilə, qeyd etməliyəm ki, Astaraçay çayı üzərində tikdiyimiz körpü vasitəsilə bu ilin mart ayında Azərbaycandan İrana artıq birinci qatar keçibdir. Biz Şimal-Cənub Dəhlizi ilə bağlı ərazimizdə olan bütün işləri yekunlaşdırdıq. Əminəm ki, bu il Şimal-Cənub layihəsinin icrasında birgə səylərlə müsbət irəliləyiş olacaq. O ki qaldı, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinə, Türkiyə tərəfi artıq bir neçə dəfə rəsmi qaydada bəyan edib ki, bu il bu layihə də istifadəyə veriləcək. Bilirsiniz ki, Azərbaycan bu layihə ilə bağlı öz üzərinə düşən bütün vəzifələri artıq icra edib".

Ümumiyyətlə, dünyada baş verən iqtisadi böhrana baxmayaraq, 2016-cı il ərzində Azərbaycan Respublikası dəmir yolları vasitəsilə 15,4 milyon ton yük daşımağa müvəffəq olub. 2017-ci ilin ilk üç ayı ərzində isə 3,8 milyon ton yük daşınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz çoxdur. Bu tendensiya ölkəmizdə beynəlxalq yükdaşımalar üzrə aparılan son islahatların bariz nümunəsidir.

Qeyd edək ki, qarşıdakı 3 il müddəti üçün müəyyən edilmiş investisiya portfelinə əsasən, Yalama-Astara istiqamətində dəmir yolunun əsaslı təmiri, Bakı-Gəncə-Bakı sürət qatarının istifadəyə verilməsi, Yevlaxda Kür çayı üzərində ikinci körpünün tikinti işlərinin yerinə yetirilməsi nəzərdə tutulur. Daha sonrakı illər üçün müəyyən edilmiş perspektiv planda isə Heydər Əliyev Beynəlxalq Aeroportuna, "Şahdağ" və "Qəbələ" turizm mərkəzlərinə dəmir yolu xətlərinin çəkilməsi planlaşdırılır ki, hazırda bu xətlərin layihələndirilməsi işləri aparılır.

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü siyasətin və dəmir yollarında son dövrdə başlamış islahatlar nəticəsində, Azərbaycan dəmir yolları regionun mühüm və əhəmiyyətli nəqliyyat-logistika holdinqinə çevrilərək dünyanın inkişaf etmiş ölkələrinin dəmir yolları sırasında öz layiqli yerini tutacaq.

***"Səs" Analitik Qrupu***

# Bütün şimal-qərb zonasında çox sürətli inkişaf gedir

## Prezident İlham Əliyev: "Bu zonaya həm dövlət, həm özəl sektor tərəfindən çox böyük investisiyalar qoyulur"

***Məlum olduğu kimi, ötən həftə Azərbaycan Prezidenti İlham Əliyev ölkənin şimal-qərb bölgəsində səfərdə olub. Səfər çərçivəsində Qax, Zaqatala və Balakən rayonlarına gələn Prezident İlham Əliyev bir sıra mühüm sosial obyektlərin açılışını edib, aqrar sektorda həyata keçirilən işlərlə tanış olub.***



Prezident İlham Əliyev Balakən və Zaqatalada elektrik stansiyalarının açılışında iştirak edib. Məlumat üçün bildirək ki, son illər ölkə iqtisadiyyatının bütün sahələri kimi, elektroenergetika sistemi də ən müasir tələblər səviyyəsində yenidən qurulub, bu istiqamətdə köklü dəyişikliklər aparılıb. İcra edilən layihələr arasında yeni su-elektrik stansiyalarının inşası, əsaslı şəkildə yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Yeni inşa edilən su-elektrik stansiyaları da, bu baxımdan, böyük əhəmiyyətə malikdir. Bu cür layihələrin icrası bölgələrin enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, eyni zamanda, regionların inkişafına təkan verməklə, əlavə iş yerlərinin açılmasına səbəb olur.



Azərbaycan Prezidenti İlham Əliyev Zaqatalada "Azərtütün" MMC-nin tütün emalı zavodunun fəaliyyəti ilə də tanış olub. Son illərdə ölkəmizdə həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının ənənəvi sahələri yeni inkişaf mərhələsinə qədəm qoyub. "Azərtütün" MMC-nin Zaqatala tütün emalı zavodu da bu baxımdan mühüm əhəmiyyət daşıyır. Layihələrin uğurla icrasının təməlində Azərbaycan dövlətinin iş adamlarına göstərdiyi diqqət və qayğı durur. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmləri də üzə çıxarır. İnşa edilən müəssisələr, həm də daxili tələbatı ödəməklə yanaşı, ixrac potensialımızı artırır. Beləliklə, "Azərtütün" MMC-nin Zaqatala tütün emalı zavodunun yaradılması, bir daha sübut edir ki, Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi ilə bağlı, qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, ölkəmizdə mühüm işlər görülür və bu işlər iqtisadiyyatın bir çox sahələrini əhatə edir.

Prezident İlham Əliyev Zaqatalada "AzRose" MMC-nin tikintisi davam edən qızılgül yağı istehsalı müəssisəsi ilə də tanış olub. Dünya üzrə ildə 3 ton qızılgül yağı istehsal olunur ki, bunun da 50 faizi Türkiyə, 40 faizi Bolqarıstan, 10 faizi isə digər ölkələrin payına düşür. Azərbaycanda ilk mərhələdə istehsal olunacaq 125 litr qızılgül yağı dünya üzrə istehsalın 5 faizini təşkil edəcək. 2016-cı ildə dünya bazarında 1 litr qızılgül yağının qiyməti 10-12 min avro təşkil edib. Müəssisədə 3 min litr "Lavanda" yağının istehsalı nəzərdə tutulub. Ötən il dünya bazarında 1 litr "Lavanda" yağının qiyməti 100-130 avro təşkil edib. Müəssisənin məhsulları 2018-ci ildən dünya bazarına çıxarılacaq. Gələcəkdə digər bitki növlərinin efir yağlarının da istehsalı mümkün olacaq. Beləliklə, "Made in Azerbaijan" brendi ilə dünya bazarlarına çıxacaq məhsullarımızın sayı və çeşidi xeyli artacaq.

Şimal-qərb bölgəsinə səfəri çərçivəsində Prezident İlham Əliyev Qax rayonunda Ləläpaşa kəndinin sakini Allahverdi Şirinovun fındıqçılıq təsərrüfatında yaradılan şəraitlə də tanış olub. 3,4 hektar sahədə salınan bağda 130 fındıq ağacı var. Böyük məhsuldarlığın gözlənildiyi təsərrüfatda bu il 2 tondan çox məhsulun yığılması planlaşdırılır. Təsadüfi deyildir ki, Qax rayonunda fındıqçılığın tarixi ənənələri var. Əhalinin böyük hissəsi bu təsərrüfatlarda çalışır. Son illər təkcə Tasmalı inzibati ərazi dairəsində 800 hektara yaxın sahədə fındıq bağları salınıb. Ləläpaşa kəndində isə 150 hektar sahədə fındıq yetişdirilir.

Bu il fındıq bağlarından bol məhsul gözlənilir. Avqustun sonlarından başlayaraq, bir ay ərzində məhsulun yığımı nəzərdə tutulur. Bununla da, qeyri-neft sektorunun inkişafını qarşıya əsas məqsəd qoyan dövlətimizin başçısının irəli sürdüyü təşəbbüslər sayəsində, bu sahədə ciddi nailiyyətlər əldə olunur. Fındıqçılığın inkişafının stimullaşdırılması da bu qəbildəndir. Ümumiyyətlə, fındıq istehsalı ölkəmizdə kənd təsərrüfatının inkişafında önəmli rol oynayır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesablamalarına görə, Azərbaycan fındıq istehsalı üzrə dünyada dördüncü ölkədir. Respublikamızda təqribən 35 min ton fındıq istehsal olunur və bunun 90 faizi xarici ölkələrə ixrac edilir. Təsadüfi deyil ki, 2016-cı ildə Azərbaycandan 25 ölkəyə 100 milyon dollardan çox məbləğdə fındıq ixrac olunub. Bu sahədə, təbii ki, dövlət dəstəyi ilə keçirilən təşviq tədbirlərinin də böyük rolu var. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, təşkil edilən çoxsaylı biznes forum, ixrac missiyaları və işgüzar görüşlərdə iştirak edən milli istehsalçılar yeni dəstək mexanizmlərindən istifadə edərək, bu sahədə ciddi irəliləyişə nail olublar. Bununla yanaşı, məhsulun artırılması məqsədilə dövlət tərəfindən fındıq istehsalçılarına milyonlarla manat güzəştli kreditlər verilib, fındıq pöhrələri alınaraq, fermerlərə pulsuz paylanılıb.

Bir sözlə, Prezident İlham Əliyevin ölkənin şimal-qərb bölgəsinə səfəri çərçivəsində bir sıra sosial və aqrar müəssisələrin açılışı, bir daha onu göstərdi ki, dünyada qlobal maliyyə böhranına baxmayaraq, Azərbaycanın təkcə paytaxtında deyil, bölgələrində də inkişaf prosesi gedir, yeni-yeni istehsal müəssisələri yaradılır, iş yerləri açılır, insanların rifah halı yüksəlir. Elə Balakən, Zaqatala və Qax rayonlarındakı inkişaf mənzərəsi bunun bariz nümunəsidir. Prezident İlham Əliyev də bildirib ki, nəinki bu üç rayonda, bütün şimal-qərb zonasında çox sürətli inkişaf gedir: "Bu zonaya həm dövlət, həm özəl sektor tərəfindən çox böyük investisiyalar qoyulur. Ancaq əlbəttə ki, burada əsas investisiya qoyuluşunun payı dövlətin üzərinə düşür. Son illərdə bu bölgəyə yolların, elektrik stansiyalarının tikintisi, qazlaşdırma, su təchizatı, suvarma məsələləri, sosial obyektlərin inşası ilə bağlı Azərbaycan büdcəsi hesabına çox böyük investisiyalar qoyulubdur. Məktəblər, xəstəxanalar, sosial obyektlər, idman kompleksləri, turizm obyektləri, bir sözlə, bu gün ölkəmizin şimal-qərb zonası öz sürətli inkişaf dövrünü yaşayır, perspektivləri də çox müsbətdir. Əminəm ki, verilən tapşırıqların yerinə yetirilməsi nəticəsində, gələcək illərdə bu müsbət dinamika daha da güclənəcəkdir".

***"Səs" Analitik Qrupu***

## Zaqatala-Balakən-Mazımçay avtomobil yolunun təmirinə 24,6 milyon manat ayrılıb

Dünən Azərbaycan Prezidenti İlham Əliyev "M-5 Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Zaqatala-Balakən-Mazımçay hissəsinin əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Ölkədə avtomobil yollarının yenidən qurulması və reabilitasiyası istiqamətində həyata keçirilən işlərin davamı olaraq, sözügedən avtomobil yolunun 100,7 min nəfər əhalinin yaşadığı 2 rayonun inzibati ərazisindən keçən, 16 yaşayış məntəqəsini birləşdirən, uzunluğu 35 kilometr olan Zaqatala-Balakən-Mazımçay hissəsinin (129-164 km) əsaslı təmir olunması məqsədilə "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə 24,6 milyon manat ayrılıb.

## Prezident İlham Əliyev Azərpaşa Nemətovu "Vətənə xidmətə görə" ordeni ilə təltif edib

Azərbaycan Prezidenti İlham Əliyev Azərpaşa Nemətovun II dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Azərpaşa Nemətov Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə təltif edilib.



# Azərbaycan regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilir

*Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşuğunda yerləşən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının yüksəldilməsində həlledici rola malikdir*

***Yeni iqtisadi çağırışlar, qlobal maliyyə böhranı, beynəlxalq bazarlarda neftin qiymətindəki kəskin dəyişikliklər fonunda yaranan iqtisadi mənzərəyə Azərbaycan Prezidenti İlham Əliyevin çevik və vaxtında reaksiyasının təzahürüdür. Məhz dövlət başçısının bu reaksiyası nəticəsində yuxarıda qeyd edilən iqtisadi situasiyanın yaratdığı təhlükə və təhdidləri dövlətimiz dəf edərək, öz iqtisadi inkişaf tempini qoruya bilib.***

Heç şübhəsiz ki, iqtisadiyyatın şaxələndirilməsi, habelə, qeyri-neft sektorunun inkişafı istiqamətində görülən işlərdə nəqliyyat infrastrukturunun inkişafı, ölkənin tranzit potensialının daha da artırılması müstəsna rola malikdir. Bu istiqamətdə görülən işlərin əsas hədəfi Azərbaycanı mühüm nəqliyyat və logistika mərkəzinə çevirmək, tranzit yükdaşımaların həcmini və keyfiyyətini yüksəltmək, Azərbaycanın yerləşdiyi iqtisadi və coğrafi məkanın verdiyi üstünlüklərdən maksimum yararlanmaqdır. Bu sahədə ən böyük layihə isə, heç şübhəsiz ki, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır.

Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 2010-cu il 3 noyabr tarixində yeni liman kompleksinin təməlqoyma mərasimi keçirilib. Ələt qəsəbəsində ərazisi 400 ha olan Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi mahiyyət etibarilə, nəyinki regional, hətta qlobal bir layihədir. Üç mərhələdən ibarət layihənin tamamlanması ilə 25 milyon tona qədər yük və 1 milyon TEU-ya qədər konteyner daşınması nəzərdə tutulur ki, bu da, sözün əsl mənasında, Ələt qəsəbəsini regionun ən böyük nəqliyyat, transit və logistika mərkəzlərindən birinə çevirəcək. Liman kompleksi üçün ayrılmış 400 ha ərazinin 100 ha sahəsində Beynəlxalq Nəqliyyat Logistikası Mərkəzinin tikintisi nəzərdə tutulub. TRASEKA çərçivəsində "Beynəlxalq Nəqliyyat Logistika Mərkəzlərinin yaradılması" layihəsini həyata keçirən Avropa Komissarlığının Nəqliyyat üzrə ekspertləri tərəfindən liman kompleksi ərazisinin Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşməsi Beynəlxalq Nəqliyyat Logistika mərkəzi üçün əlverişli hesab edilib. Bu mərkəzin ölkə və region iqtisadiyyatında xüsusi mövqeyə malik olması və nəqliyyat qovşağında önəmli yer tutması Azərbaycanın geostrateji əhəmiyyətini bir daha təsdiqləyir.



Ötən dövr ərzində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində, qeyri-neft sektorunun inkişafında müstəsna rolu olan nəqliyyat infrastrukturunun inkişafı, ölkənin tranzit potensialının daha da artırılması istiqamətində bir sıra əhəmiyyətli nailiyyətlər əldə edilib, Azərbaycanın mühüm Nəqliyyat və Logistika Mərkəzinə çevrilməsi üçün münbit şərait yaradılıb, tranzit yükdaşımaların həcmi və keyfiyyəti yüksəlib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətinin müasirləşdirilməsi üçün onun yenidən təşkili yolu ilə Xəzər dənizinin Bakı şəhərinə aid akvatoriyasında liman xidmətləri göstərmək hüququ olan "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti yaradılıb, habelə, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinə başlanılıb. Buna görə də, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının dünya standartlarına cavab verən liman səviyyəsinə çatdırılması, eləcə də, limanın normal fəaliyyətinin təmin edilməsi və liman ərazisində yükaşımaların həyata keçirilməsi üçün zəruri infrastrukturun yaradılması məqsədilə Prezident İlham Əliyevin imzaladığı Sərəncamla liman üçün 6 ədəd portal kranın alınması və 2 ədəd mövcud kranın modernləşdirilməsi məqsədilə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinə, müvafiq olaraq, 33,2 milyon manat və 3,6 milyon manat olmaqla, cəmi 36,8 milyon manat vəsait ayrılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin bu sərəncamları, artıq onu göstərir ki, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihəsi, artıq həlledici mərhələyə qədəm qoyub. Hər iki Sərəncamla ayrılan vəsaitlər layihənin icrasını sürətləndirmək və onu lazımi texniki imkanlarla təmin etmək məqsədi daşıyır. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının böyük perspektivi var. Ələt istər avtomobil yolu, istərsə də dəmir yolu baxımından, unikal bir qovşaq yaradır. Bura indi müasir dəniz limanı əlavə olunur. Gələcəkdə isə hava limanının inşası nəzərdə tutulur.

Bir neçə il əvvəl limanın əsas perspektivini onun, məhz Şərq-Qərb dəhlizi üzərində yerləşməsində görürdük. Çünki beynəlxalq yük daşıma qrafikinə nəzər salsaq, bir alternativ kimi bu marşrut yük sahiblərinə bir çox üstünlüklər verir. Çindən Avropaya alternativ marşrut kimi yüklərin daşınmasında, eyni zamanda, Avropadan Orta Asiyaya daşımalarda bu, ən cəlbedici marşrutdur.

***"Səs" Analitik Qrupu***

# Çinin nüfuzlu "CCTV-4" kanalının Naxçıvanda çəkilişi başa çatıb



Çinin nüfuzlu "CCTV-4" telekanalı "Vətən - xəyallar ölkəsi" adlı səyahət mövzulu verilişinin növbəti buraxılışını Azərbaycana həsr edib. Telekanalın çəkiliş qrupu ötən həftə və bu həftə Naxçıvan Muxtar Respublikasında çəkiliş aparıb. Səfərin ilk günü qonaqlar Naxçıvan Dövlət Xalça Muzeyi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olublar. Növbəti gün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində çəkilişlərə başlayan qonaqlara məlumat verilib ki, dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı şirkətlərindən olan "Huawei" şirkəti Azərbaycanda fəaliyyətinə Naxçıvandan başlayıb. Şirkət tərəfindən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə əməkdaşlıq çərçivəsində 2014-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi qurulub.







Qonaqlar "Naxçıvan" Universitetinə gələrək burada İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi ilə tanış olublar. Sonra çəkiliş qrupu Duzdağ Fizioterapiya Mərkəzində olub. Burada bildirilib ki, mərkəz muxtar respublikanın əsas səhiyyə turizmi obyektlərindəndir. Mərkəzə dünyanın müxtəlif ölkələrindən yüzlərlə insan müraciət edir.

Avqustun 5-də Naxçıvan Dövlət Universitetində çəkiliş qrupu ilə görüş keçirilib. Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru Seymur Talıbov və tədris işləri üzrə prorektoru Surə Seyid ali təhsil ocağının tarixi inkişaf yolu, tədris imkanları və beynəlxalq əlaqələri haqqında qonaqlara məlumat veriblər. Media Mərkəzi, "Universitet" televiziyası və "Nuhçıxan" radiosu ilə tanışlıq qonaqların böyük marağına səbəb olub. Həmin gün universitetdə "Huawei" şirkətinin xətti ilə Çin Xalq Respublikasında təcrübə keçən tələbələrlə də görüş olub.

Avqustun 7-də çəkiliş qrupu Naxçıvan Dövlət Televiziyası və Radiosu ilə tanış olub. Komitə sədrinin müavini Xaliq Babayev Televiziya haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, son illər televiziyanın və radionun maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, ən müasir texniki avadanlıqlarla təchiz edilib. Diqqətə çatdırılıb ki, bu gün dünyanın istənilən yerindən Naxçıvan Dövlət Televiziyasını internet vasitəsilə izləmək mümkündür. Dublyaj redaksiyası, çəkiliş pavilyonları, montaj otaqları ilə tanış olan qonaqlara televiziyanın istehsalı olan 31 sənədli film, televernisaj və videoçarx təqdim olunub.

"CCTV-4" telekanalının əməkdaşları səfərin sonuncu günü çəkilişlərini Əlincəqalada davam etdiriblər. Qonaqlara müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunmuş Əlincəqalanın tarixi haqqında məlumat verilib.

# Azərbaycanın islam həmrəyliyi ilə bağlı təşəbbüsləri dünyada yüksək dəyərləndirilməkdədir

*2017-ci ilin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan edilməsi bütün dünyaya hörmətlə yanaşmaq, həmrəy olmaq, dinlər və məzhəblər arasında dialoq qurmaq çağırışı oldu. Məhz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın dövlət-din münasibətləri modeli sayəsində milli-mənəvi dəyərlərə qayıdışın əsası qoyulub, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilir, ölkədə etiqad və inanc azadlığı tam təmin edilir. Əsası qoyulan siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi xalqın milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan dinimizə dövlət qayğısının bariz nümunəsidir.*




Cənab İlham Əliyevin Prezidentliyi dövründə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması və inkişaf etdirilməsinə xüsusi önəm verilib. Bu məqsədlə yeni ibadət ocaqlarının inşası, təmirə ehtiyacı olanların yenidən bərpası istiqamətində çoxsaylı işlər görülüb. Əgər Sovet İttifaqı dağılarkən, ölkəmizdə 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-i ötüb. Təkcə son 14 il ərzində ölkədə 200-dan çox məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına və tapşırıqlarına uyğun olaraq, Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdərbəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində, Gəncə şəhər İmamzadə Ziyarətgahında əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılıb. Dövlət başçısının tapşırığı ilə Binəqədi rayonunda inşa edilən və Cənubi Qafqazın ən möhtəşəm islam abidəsinin - Heydər məscidinin 2014-cü il dekabrın 26-da açılışı olub.

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə böyük həssaslıqla yanaşan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın bu dəyərlərimizin qorunması istiqamətindəki fəaliyyəti də xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyeva hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırıb. Onun rəhbərliyi ilə fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" Ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə əsaslı təmir və bərpa işləri aparılıb, o cümlədən yeni məscidlər istifadəyə verilib.

Qətərin "Əl-Cəzirə" televiziyasına müsahibəsində bununla bağlı danışan Prezident İlham Əliyev bildirib ki, Azərbaycan islam sivilizasiyasının bir parçasıdır və biz bununla fəxr edirik. Biz tarixi və dini abidələrimizlə fəxr edirik: "Sizə deyə bilərəm ki, Sovet İttifaqı dövründə Azərbaycanda yalnız 20-dən az məscid var idi, çünki ateizm dövründə məscidlərimizin böyük əksəriyyəti dağıdılmışdı. İndi isə 2000-dən artıq məscid var. Onlar müstəqillik dövründə tikilib. Biz onları təkcə tikməmişik, həm də tarixi məkanlarımızı, bütün məscidlərimizi bərpa etmişik və müsəlman aləminin ən qədim məscidlərindən biri Azərbaycanda, Qədim Şamaxı şəhərində yerləşir. Şamaxı məscidi 743-cü ildə tikilib. Bax, bu, bizim tariximiz və mədəniyyətimizdir. Məqsədimiz, ilk növbədə, müsəlman dünyasında birliyi gücləndirməkdir. "İslam Həmrəyliyi İli"nin elan olunması da, elə bu, deməkdir".

Prezident İlham Əliyev onu da bildirib ki, indi müsəlman dünyasının əvvəl heç zaman olmadığı qədər daha çox birliyə ehtiyacı var. Müsəlman dünyasında bu birlik çatışmır: "Düşünürəm ki, Azərbaycan bu istiqamətdə mühüm rol oynayır. IV İslam Həmrəyliyi Oyunlarının təşkil olunması da bunu göstərir, çünki bu, təkcə idman deyil, bu, təkcə idmançıların bayramı olmayacaq, bu, müsəlman dünyasının gənclərini birləşdirəcək, onlar Bakıya gələcəklər, ölkəmizi görəcəklər, əlaqələr quracaqlar və bu əlaqələr bütün müsəlman gənclərinə ölkələr arasındakı əlaqələri gücləndirməyə kömək edəcək. Biz islamofobiya meyillərinin artmasından, islamın bəzi beynəlxalq media orqanları tərəfindən, necə deyərlər, terror dini kimi təqdim olunmasından çox narahatıq. Terrordan ən çox müsəlmanlar ziyan çəkib. Bizim qədim sivilizasiyamız, dəyərlərimiz, dünyaya töhfələrimiz var. Biz bunu nümayiş etdirməliyik. Azərbaycan Avropa ölkələrində çox işlər həyata keçirir, biz sərgilər, təqdimatlar təşkil edirik, islam mədəniyyətini təbliğ edirik və beləliklə, göstəririk ki, qədim sivilizasiyaya malikik və eyni zamanda, bununla, Azərbaycanda müsəlman həmrəyliyini gücləndiririk. Ümumiyyətlə, Azərbaycanda bütün dinlərin nümayəndələrinin hamısının arasında yüksək səviyyədə birlik mövcuddur. Biz sülh şəraitində yaşayırıq və heç zaman ayrı-seçkilik etmirik. Budur, irəli getməyin yolu".

Azərbaycanın islam həmrəyliyi ilə bağlı təşəbbüsləri dünyada da yüksək dəyərləndirilməkdədir. Məsələn, İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin islam həmrəyliyi ilə bağlı çağırışları təqdirəlayiqdir. O, hazırkı dövrdə islam dünyasında həmrəyliyə böyük ehtiyacın olduğunu qeyd edib. İran İslam Şurası Məclisinin (parlamentin) sədri Əli Laricani isə, bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ili ölkədə "İslam Həmrəyliyi İli" elan etməsi mühüm addımdır.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin islam dünyasına həmrəylik çağırışı müsəlmanların dinc və mehriban şəraitdə yaşamasına əməli töhfəsini verir. Bu da dünya ölkələri tərəfindən təqdir olunur.

***"Səs" Analitik Qrupu***

## "Həmsədrlər Ermənistana işğalçı gözü ilə baxmalıdırlar"



"Minsk qrupunun amerikalı həmsədri Riçard Hoqland deyir ki, artıq Azərbaycanla Ermənistan arasında qarşılıqlı güvən yaratmanın zamanı gəlib çatıb və onun dediyinə görə Minsk qrupuna həmsədrlik edən digər ölkə, yəni Rusiya da bu fikirləri bölüşür". Bu sözləri SİA -ya açıqlamasında millət vəkili Sahib Alıyev deyib. Onun sözlərinə görə, amma aralarında son 25 ildə indiki qədər ziddiyyət və güvənsizlik olmayan bu iki ölkənin əl-ələ verib bizim regionda qarşılıqlı güvən yaradacaqları təəssüf ki, ağlabatan deyil: "Bunun da iki səbəbi var. Birinci səbəb ermənilərlə bizi barışdırmaq istədiklərini deyənlərin vurğuladığımız kimi özlərinin arasında böyük güvənsizliyin olmasıdır. İkinci və ən əsas səbəb isə həmsədrlərin bilərəkdən odu qoyub, tüstü ilə oynamalarıdır. Ancaq od tüstüdən yaranmır axı, tüstü oddan yaranır!

Ermənilər bizim torpağı arada güvən olmadığına görə işğal etməyiblər. Arada güvən ona görə yoxdur və ola bilməz ki, onlar torpaqlarımızı işğal altında saxlayırlar. Güvən yaranması üçün işğalçı işğal altında saxladığı torpaqlardan çəkilməlidir.

Əgər Ermənistan bunu etmirsə, bizə qarşı düşmənçilik siyasəti yeridirsə, ona necə güvənə bilərik? Ermənistana, onun işğalçılıq siyasətinə dözümlü və himayədar yanaşma sərgiləyən həmsədrlərə güvənmək heç lazım deyil. Bütün bunlara görə bu gün Azərbaycanda çox təbii olaraq heç bir güvən yoxdur və cənab Hoqland da bunu bilməmiş deyil.

Ona görə də həmsədr ölkələr ilk növbədə buna çalışmalıdırlar ki, biz az da olsa, onlara güvənə bilək. Bunun üçünsə çox yox, az da olsa ədalətli davranmalı, öz maraqlarından deyil, beynəlxalq normalardan çıxış etməlidirlər. Ermənistana geosiyasi alət və forpost yox, işğalçı gözü ilə baxılmalıdır.

## Kəngərli rayonunda qapalı suvarma şəbəkəsi tikilir



Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması sahəsində həyata keçirilən tədbirlər mütəmadi olaraq davam etdirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidmətindən bildirilib ki, yay aylarında əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsi və sudan itkisiz istifadə diqqət mərkəzində saxlanılır, bu məqsədlə ardıcıl tədbirlər görülür. İyul ayında muxtar respublikanın rayonlarında 12 kilometr magistral kanal, 42 kilometr ara arxlar, 5 kilometr kollektor lildən təmizlənib, 7 kilometr yeni suvarma boru xətti çəkilib, 6 kilometr içməli su xətti təmir edilib.

Yeni torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək, su itkisinin qarşısını almaq üçün Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 400 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, müxtəlif diametrli borularla 7290 metr suvarma boru xətti çəkilib.

Suvarma və içməli su mənbəyi kimi istifadə olunan 9 subartezian quyusunda yeni nasos quraşdırılıb, 6 kəhrizdə təmir-bərpa işləri aparılıb. "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində Şərur rayonunda 4500 metr su və 2200 metr kanalizasiya xətti çəkilib, Şahbuz şəhərindəki çirkab sutəmizləyici qurğuda tikinti işləri aparılıb.

## FHN əcnəbi vətəndaşı xilas etdi



Bir nəfər əcnəbi vətəndaş dənizdə çimərkən batma təhlükəsi ilə üzləşib. Fövqəladə Hallar Nazirliyinin saytı xəbər verir ki, bu barədə Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə məlumat daxil olub.

Həmin şəxs Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasedicilərı tərəfindən xilas olunub.

## "Sahil" metrostansiyası bağlanmasıdan sonra nə baş verəcək?




"İçərişəhər" və "28 May" metro stansiyası gücləndirilmiş iş rejiminə keçəcək. Bu barədə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev deyib.

O bildirib ki, "Sahil" metro stansiyası təmir bağlanacağı üçün bu stansiyadan istifadə edən sərnişinlər "28 May" və "İçərişəhər" metro stansiyasına yönələcəklər. Bu proses tədris ili zamanı daha intensivləşəcək. Buna görə də hər iki stansiya fərqli qrafiklə işləyəcək. Sözügedən stansiyalar "Sahil" metro stansiyasından istifadə edəcək sərnişinləri də qəbul etmək gücündədir. Sıxlığın qarşısını almaq üçün "İçərişəhər" və "28 May" metro stansiyasında eskalatorların işlək vəziyyəti daha da artırılacaq.

## Deputat: "Ermənilərin son təxribatına beynəlxalq hüquq-müdafiə təşkilatları qiymət verməlidir"



Ermənilərin son təxribatına beynəlxalq hüquq-müdafiə təşkilatları qiymət verməlidir. Bunu trend-ə Milli Məclisin deputatı Hikmət Babaoğlu avqustun 7-də Tovuz rayonunun Qaralar kəndində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində 13 yaşli kənd sakini Ramil Yusibovun yaralanmasına münasibət bildirərəkən deyib.

H.Babaoğlu qeyd edib ki, bu hadisə Ermənistanın terrorçu dövlət olmasının isbatıdır: "Dinc sakinlərə qarşı erməni vandalizminin həyata keçirilməsi Ermənistanın dövlət siyasəti səviyyəsinə qaldırılıb. Dünya ictimaiyyətinin gözü qarşısında mülki əhalinin hərbçilər tərəfindən atəşə tutulması faşizmin təzahürüdür. Ermənistan təxribatlar törətməklə Azərbaycan əhalisi arasında xof yaratmağa çalışır. Sərhədboyu bölgələrdə dinc əhaliyə qarşı vəhşilik etməklə Ermənistan acizliyini nümayiş etdirir. Dinc əhalini atəşə tutmaq faşistlərin işidir".

Deputat hesab edir ki, ermənilərin Azərbaycanın Tovuz rayonunda törətdikləri təxribata beynəlxalq hüquq-müdafiə təşkilatları qiymət verməlidir: "Beynəlxalq təşkilatlar bu hadisə ilə bağlı mövqe bildirməlidirlər ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib və erməni silahlı birləşmələri hələ də dinc azərbaycanlıları atəşə tutmaqdadır. Ermənistanın təxribatları cavabsız qalmayacaq. Azərbaycanın güclü ordusu var. ATƏT-in Minsk qrupunun həmsədrləri fəal addımlar atmalı və status-kvonun dəyişməsi üçün real tədbirlər görməlidirlər. Çünki belə hallar Azərbaycan tərəfini məcbur edir ki, öz torpaqlarını işğaldan azad etsin".

Qeyd edək ki, Ermənistan hərbi hissələri avqustun 7-də saat 20 radələrində Azərbaycanın işğal olunmuş ərazilərindən Tovuz rayonunun Ermənistanla həmsərhəd olan Qaralar kəndini iriçaplı silahlardan atəşə tutaraq mülki əhalinin qəsdən məhv edilməsi məqsədilə növbəti təxribat törədiblər. Nəticədə Qaralar kənd sakini - 2004-cü il təvəllüdlü Yusibov Ramil Sabir oğlu ot biçinindən gələrkən qəlpə xəsarətləri alaraq ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Faktla bağlı Tovuz rayon prokurorluğunda Cinayət Məcəlləsinin 116.0.10 (silahlı münaqişə zamanı mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etməklə beynəlxalq humanitar hüquq normalarını pozma), 29, 120.2.7 (iki və ya daha çox şəxsi qəsdən öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanıb, istintaq aparılır.

## "N" saylı hərbi hissədə maarifləndirmə tədbiri



Bu gün Daxili Qoşunların Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissəsində "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdən əvvəl Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəflərinin işıqlandırıldığı "Fitnə" sənədli filmi nümayiş olunub.

Filmin nümayişindən sonra tədbiri giriş sözü ilə açan hərbi hissə komandirinin Tərbiyəvi işlər üzrə müavini, polkovnik-leytenant Əli Qasımov ölkəmizdə ictimai-siyasi sabitliyin və dünyaya örnək ola biləcək tolerantlıq mühitinin olduğunu vurğulayıb, tolerant ənənələrin milli mənsubiyyətindən, dinindən asılı olmayaraq hər bir azərbaycanlının həyat tərzinə çevrildiyini qeyd edib. Əli Qasımov, eyni zamanda, "Fitnə" sənədli filminin demək olar ki, bütün hərbi hissələrdə nümayiş etdirilməsinin təqdirəlayiq hal olduğunu bildirib və bu cür maarifləndirmə tədbirlərinin mütəmadi şəkildə həyata keçirilməsinin əhəmiyyətindən bəhs edib.

Daha sonra çıxış edən DQİDK sədrinin müavini Səyavuş Heydərov dövlət-din münasibətlərinin milli təhlükəsizlik və milli maraqlar baxımından düzgün istiqamətləndirilməsi məqsədilə mövcud qanunvericilik bazasının təkmilləşdirilməsindən, hüquqi aktlara edilmiş zəruri əlavə və dəyişikliklərdən danışıb, o cümlədən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi genişmiqyaslı maarifləndirmə, qabaqlayıcı və profilaktik xarakterli tədbirlər barədə ətraflı məlumat verib. Komitə sədrinin müavini, eyni zamanda, Azərbaycan xalqının əsrlərboyu sahib olduğu milli-mənəvi dəyərlərin qorunub saxlanılması, bu sahədəki mövcud potensialın inkişaf etdirilməsi, vicdan azadlığının təmin olunması, ölkədə dövlətdin münasibətlərinin demokratik əsaslar, ümumbəşəri dəyərlər və dünyəvilik zəmnində formalaşdırılması istiqamətində görülən tədbirlərə diqqət çəkib. Səyavuş Heydərov çıxışında, eləcə də radikalizmin formalaşması, yayılması metodları, əhatə dairəsi barədə məlumat verib, ona qarşı mübarizə çərçivəsində tolerant, multikultural və həmrəylik dəyərlərinin təbliğatının genişləndirilməsi istiqamətində həyata keçirilən maarifləndirmə tədbirlərinin ən effektiv vasitə olduğunu xüsusi qeyd edib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Qaradağ rayonunda "Beynəlxalq gənclər günü" qeyd edildi

*Tədbir YAP rayon təşkilatının Gənclər birliyi və Gənclər idman idarəsinin birgə təşkilatçılığı ilə keçirilib*

11 avqust 2017-ci il tarixdə Sahil qəsəbəsində yerləşən Gənclər Evində "12 avqust - Beynəlxalq gəncləri günü"nə həsr olunmuş "Azərbaycan gəncliyi beynəlxalq miqyasda" dəyirmi masa keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbiri giriş sözü ilə açan Qaradağ rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Abbasov Azərbaycanda gənclər hərəkatının tarixindən, müxtəlif tarixi mərhələlərdə gənclərin iştirakından danışaraq onların rolunu qeyd edib. Dovlət orqanlarının diqqətini gənclərlə bağlı problemlərə yönəltmək məqsədilə həyata keçirilmiş islahatlarda Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri xüsusilə vurğulanıb.



Qeyd olunub ki, 1998-ci ilin 08-12 avqust tarixlərində Lissabonda gənclər sahələri üzrə nazirlərin görüşü olmuş və həmin dövlət məmurları tərəfindən qarşılıqlı beynəlxalq əməkdaşlıq sahəsində bir sıra razılaşmalar əldə edilmiş, görüşün yekun iclasın keçirildiyi gün, yəni 12 avqust "Beynəlxalq gənclər günü" kimi dünya gənclərinin həyatına daxil olmuşdur.

Gənclər adından çıxış edən Yeni Azərbaycan Partiyası Qaradağ Rayon Təşkilatının Gənclər Birliyinin sədri Ramiz Yusubov, fəal gənc Könül Əhmədova, Cavanşir Eyvazov, Vüsal Yusifov onlara verilən dəstəyə, göstərilən etimada və ölkə gənclərinin beynəlxalq gənclər hərəkatına inteqrasiyası üçün yaradılan şəraitə görə olkə Başçısı İlham Əliyevə minnərdar olduqlarını söyləyiblər. Rayon İcra Hakimiyyətinin əməkdaşı Səmayə Şıxəliyeva rayon gənclərini "Beynəlxalq gəncləri günü" münasibətilə təbrik edərək onları ictimai-siyasi həyatda daha fəal iştirak etməyə səsləyib. Çıxışlarda həmçinin uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün yaradılmış gözəl şəraitdən, o cümlədən Qaradağ rayonunda gənclərin istifadəsinə verilmiş Qaradağ Gənclər Evindən danışılıb və gənclər adından rayon rəhbərliyinə təşəkkür edilib.

Tədbirin sonunda Beynəlxalq Gənclər Günü münasibətilə rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup gənc diplomlar və hədiyyələrlə mükafatlandırılıblar.

## Latviya səfiri Bilik Fondunda oldu



***Latviya Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Juris Maklakovs Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun qonağı olub.***

Bilik Fondunun İnformasiya təminatı sektorundan SİA-ya verilən məlumata görə, Bilik Fondunun icraçı direktoru Oktay Səmədov səfirə rəhbərlik etdiyi qurumun məqsəd və vəzifələri, strukturu, iş prinsipi və maarifçilik istiqamətində həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat verib. Latviya və Azərbaycan arasında qarşılıqlı münasibətlərin uğurla inkişaf etdiyini xatırladan O.Səmədov ötən ay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşünün keçirildiyini xatırladıb. İcraçı direktor hər iki ölkə rəhbərinin Latviya paytaxtında baş tutmuş görüşünün, əməkdaşlığa dair indiyədək imzalanmış rəsmi sənədlərin Bilik Fondunun bu sahədə maarifləndirici fəaliyyətinə yeni təkan verəcəyini vurğulayıb və beynəlxalq layihələrdə Latviya səfirliyi ilə əməkdaşlığın səmərəli nəticələr verəcəyinə əminliyini ifadə edib. Bildirilib ki, "Dünya elmi Azərbaycanda" və "Azərbaycan elmi dünyada" layihələri çərçivəsində Fondun təşkilatçılığı və dəstəyi ilə xarici ölkələrin alim və mütəxəssislərinin Azərbaycanın elm və təhsil ocaqlarında, eləcə də azərbaycanlı mütəxəssislərin xarici universitetlərdə mühazirələri maraqla qarşılanır. Azərbaycan və Latviya alimlərinin iştirakı ilə elmi biliklərin müxtəlif sahələri üzrə belə mühazirələrin təşkili hər iki ölkə gənclərinin inkişafına mühüm töhfə verə bilər. O.Səmədov səfiri Fondun "Səfir saatı" Klubunda gənc diplomatlarla görüşə dəvət edib. Səmimi qarşılanmaya görə təşəkkürünü bildirən səfir Juris Maklakovs gələn il müstəqilliyinin 100 illiyini qeyd edəcək Latviya və Azərbaycan Respublikalarının tarixinin oxşar məqamlarını xatırladıb və Fondun maarifçilik yönündə fəaliyyətini təqdir etdiyini bildirib. Juris Maklakovsun sözlərinə görə, Azərbaycan elmi, tarixi və mədəniyyətinin Latviyada təbliği, Latviyanın Azərbaycanda hərtərəfli tanıdılması ölkələr arasında mövcud əməkdaşlığın xalqlar arasında da isti münasibətlərə çevriləcəyinə təkan verəcək. Fondun "Səfir saatı" Klubunun dəvətini məmnuniyyətlə qəbul etdiyini bildirən səfir bir çox sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu da vurğulayıb.

Səmimi və işgüzar şəraitdə keçən görüşün sonunda qonağa Bilik Fondunun hədiyyələri, kitablar təqdim olunub və xatirə fotoşəkli çəkilib.

Bilik Fondu ölkə əhalisinin dünya elminin əldə etdiyi nailiyyətlərlə tanış edilməsi, Azərbaycan həqiqətlərinin, azərbaycançılıq məfkurəsinin mahiyyətinin xarici ölkələrin yüksək rütbəli nümayəndələri vasitəsilə dünya ictimaiyyətinə çatdırılması məqsədilə beynəlxalq əlaqələrini genişləndirir. Bu məqsədlə Bilik Fondunda xarici ölkələrin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri, xarici ölkə nümayəndəliklərinin rəhbərləri ilə mütəmadi işgüzar görüşlər keçirilir.

## Lerikdə 50 hektarda fındıq tingi əkilib

Lerik rayon icra hakimiyyətində Qax şəhərində keçirilmiş barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində Prezident İlham Əliyevin nitqindən irəli gələn vəzifələr müzakirə edilib. Yığıncaqda rayon icra hakimiyyətinin məsul işçiləri, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, kənd təsərrüfatı mütəxəssisləri, sahibkarlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Lerik rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov çıxış edərək respublika müşavirəsində dövlətimizin başçısı tərəfindən verilmiş tapşırıqları iştirakçıların diqqətinə çatdırıb, rayonda kənd təsərrüfatı məhsulları istehsalının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi üçün qarşıda duran vəzifələrdən danışıb.Qeyd olunub ki, 2016-cı ildə Lerikdə ilk dəfə olaraq 10 hektarda tütün əkilib. Bu il isə tütün əkini sahələri 2,5 dəfə artırılaraq 25 hektara çatdırılıb. Sahələrdən 5,4 ton yaş tütün yarpağı yığılaraq rayondakı qurutma məntəqəsinə təhvil verilib.Çıxışlarda bildirilib ki, cari ildə rayonda fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı müəyyən işlər görülüb. Yerli sahibkarlar tərəfindən Zaqatala, Balakən və Qəbələ rayonlarından Lerikə gətirilən 60 minə yaxın fındıq tingi 50 hektar sahədə əkilib.Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin respublika müşavirəsində proqram xarakterli çıxışından irəli gələn vəzifələrin icrası üçün cavabdeh təşkilatlar və məsul şəxslərlə yanaşı, yerli əhalinin də səyləri səfərbər olunmalı, planlı iş qurulmalı, sahibkarlara lazımi köməklik göstərilməlidir.Yığıncaqda rayon icra hakimiyyətinin sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Vüqar Mirzəyev, kənd təsərrüfatı idarəsinin rəisi Mahmud Zahidov, təcrübəli tütünçülər Mirzəmməd Salayev və Gəray Qənbərov çıxış edərək, Lerikdə tütünçülüyün inkişafı və bu sahədə mövcud problemlərin aradan qaldırılması ilə bağlı təkliflərini bildiriblər.

## Kənd təsərrüfatının inkişafı ilə Azərbaycan yeni bir inkişaf mərhələsi yaşayacaq

"Avqustun 4-də dövlət başçımızın Sədrliyi ilə Qaxda baramaçılığın, tütünçülüyün və fındıqçılığın inkişafına həsr olunmuş ümumrespublika müşavirəsi Azərbaycanda texniki bitkilərin yetişdirilməsi istiqamətində yeni bir mərhələdir". Bu sözləri SİA - ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Onun sözlərinə görə, ölkə başçısı müşavirədəki çıxışında yaxın keçmişə ekskursiya etməklə sovetlər dövründə Azərbaycanın kənd təsərrüfatında qazanılan uğurlar haqqında danışaraq gələcəkdə baramaçılığın, tütünçülüyün və fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı vəzifələri və hədəfləri müəyyənləşdiribdir: "Əsas hədəf isə istehsal olunan məhsulun xammal şəklində yox, son hazır məhsul şəkilində istehsal olunaraq bazara çıxarılması olub. Bu isə ölkədə yüngül və yeyinti sənayesinin sürətli inkişafına gətirib çıxaracaq, həm də yeni iş yerlərin açılmasına imkan verəcəkdir. Əgər biz statistikaya nəzər yetirsək görəcəyik ki, ölkə əhalisinin 40% - dən çoxu aqrar sektor olan bölgələrdə yaşayır. Ona görə də iqtisadiyyatın bu sahəsinin inkişafı ölkə əhalisinin 40-%-inin işlə təmin olunması deməkdir. Müşavirədə cənab prezident tütünçülüyün, baramaçılığın və fındıqçılığın inkişafı ilə bağlı dövlət proqramlarının qəbul olunacağı qeyd edibdi. Artıq tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı 2017-2021 -ci illəri əhatə edəcək Dövlət Proqramı təsdiq olunub . Dövlət Poqramında ölkədə tütünçülüyün inkişaf etdirilməsi ilə əlaqədar görüləcək işlər və icra olunacaq vəzifələr konkret şəkildə müəyyənləşdirilibdir. Düşünürəm ki, digər sahələr üzrə də konkret dövlət proqramlarının qəbulu ölkəmizdə istehsal olunan kənd təsərrüfatı məhsullarının keyfiyyət və kəmiyyət göstəricilərini artıracaq, dünya bazarlarına çıxarıla biləcək rəqabətqabiliyyətli məhsulların istehsalına imkan verəcək və Azərbaycan brendini dünyada tanıdacaqdır. Gələcəkdə kənd təsərrüfatında və yüngül-yeyinti sənayesi sahələrində istehsal olunacaq geniş çeşidli dünya standartlarına cavab verəcək məhsulların dünya bazarlarına ixracı ölkəmizə xarici valyuta axınını sürətləndirəcək. Bu da ölkə daxili iqtisadiyyatı davamlılığını artıracaq, milli valyutamızın alıcılıq qabiliyyətini yüksəldəcək, işsizlik problemini birdəfəlik həll edəcək və ölkəmizi yeni bir inkişaf mərhələsinə çıxardacaqdır"

# Azərbaycan 2004-cü ildən başlayaraq nəhəng uğurlara imza atıb

*Prezident İlham Əliyev: "Azərbaycanda idxaldan asılılığı azaltmaq, daxili tələbatı yerli istehsal hesabına təmin etmək və ixrac imkanlarını genişləndirmək üçün qəbul edilmiş proqramlar uğurla icra edilir"*



***Son illər Azərbaycanda bütün sahələr üzrə inkişaf və tərəqqi mövcuddur. Ölkəmizin münbit torpaqlarına və hava iqliminə xas olan bölgələrində kənd təsərrüfatının, digər sahələrin, xüsusilə, qeyri-neft sektorunun, o cümlədən, sahibkarlığın inkişafında davamlı nailiyyətlər əldə edilməkdədir. Həmçinin, əhalinin sosial təminatında özəl yeri olan iş yerlərinin açılması, həmin sahələr üzrə infrastrukturların qurulması da, belə qənaətə gəlməyə zəmin yaradır ki, Azərbaycanda lazım olan bütün infrastruktur layihələri icra edilib.***

Söz yox ki, ötən illər ərzində, xüsusilə, 2004-cü ildən bu yana aparılan nəhəng işlər bu gün Azərbaycanı dünyanın iqtisadi və sosial inkişafı baxımından tərəqqi edən ölkələri sırasına ucaldıb. Məsələn, 2004-cü ildən bu günədək 11 min kilometr yeni yollar - həm magistral, həm də kənd yolları salınmışdır, böyük meliorasiya layihələri icra edilmiş, Taxtakörpü, Şəmkirçay su anbarları, digər dəryaçalar yaradılmış, kanallar çəkilmişdir.

## "2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ölkə tarixində çox böyük rolu vardır"

Yeri gəlmişkən, məhz bu və digər sahələrin inkişaf etdirilməsi məsələlərinə dair respublika müşavirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü fikirləri mühümlüyü və əhəmiyyəti ilə seçilir. Belə ki, "bölgələrdə lazım olan bütün infrastruktur layihələri icra edilib və Azərbaycan sürətli inkişaf dövrünü yaşayır"-deyə vurğulayan dövlət başçısı qeyd edib ki, hazırkı zamana qədər əldə edilən hər bir uğurun arxasında daha öncə qəbul edilmiş dövlət proqramları dayanır. SİTAT: "2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ölkə tarixində çox böyük rolu vardır".

Digər tərəfdən, "2004-cü ildən bu günə qədər Azərbaycan bölgələrinin inkişafı tarixi nailiyyətdir"-deyə qeyd edən Prezident heç vaxt Azərbaycan tarixində, belə qısa müddət ərzində, bu qədər işlərin görülmədiyini də xüsusi olaraq diqqətə çatdırıb.

Dövlət başçımız, eyni zamanda, bildirib ki, 30-a yaxın yeni elektrik stansiyasının tikilməsi sayəsində bu gün Azərbaycan özünü elektrik enerjisi ilə təmin edir və xaricə də elektrik enerjisi ixrac edir. Eləcə də, qazlaşdırma Azərbaycanda hazırda 93 faiz səviyyəsindədir.

## "2004-cü ildən bu günədək Azərbaycanda yeni sosial infrastruktur yaradılmış, 3 mindən çox məktəb, 600-dən çox xəstəxana, bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi tikilmişdir"

Həmçinin, əldə edilən davamlı uğurların nəticəsində Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsinin daha da aşağı düşəyini qeyd etmək olar. O cümlədən, 2004-cü ildən bu günədək Azərbaycanda yeni sosial infrastruktur yara-

# Azərbaycan 2004-cü ildən başlayaraq nəhəng uğurlara imza atıb

## Prezident İlham Əliyev: "Azərbaycanda idxaldan asılılığı azaltmaq, daxili tələbatı yerli istehsal hesabına təmin etmək və ixrac imkanlarını genişləndirmək üçün qəbul edilmiş proqramlar uğurla icra edilir"

dılmış, 3 mindən çox məktəb, 600-dən çox xəstəxana, bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi tikilmişdir.

Yazının əvvəlində də vurğulandığı kimi, bütün bunlar, o cümlədən, Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının sahibkarlara siyasi dəstək göstərdiyinin, onlarla davamlı şəkildə görüşdüyünün, problemlərini həll etməsinin bariz nəticəsidir. Məsələn, ötən dövr ərzində sahibkarlara verilən kreditlər hesabına yüz minlərlə yeni iş yeri yaradılmışdır. Bütövlükdə, 2004-cü ildən bu günə qədər 1 milyon yarım iş yeri açılmışdır ki, bunun böyük əksəriyyəti daimi iş yeridir. Ölkə başçımız vurğulayıb: "Hazırda Azərbaycanda işsizlik kimi bir çox ölkələri incidən, boğan sosial amil yoxdur: işsizlik 5 faiz səviyyəsindədir. Son iki il ərzində kənd təsərrüfatı, sənaye sahələrində görülmüş çox böyük işlər sayəsində Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi daha da aşağı düşəcək".

Məhz bunun nəticəsidir ki, artıq iş axtarmaq problemi, ümumiyyətlə, aradan qaldırılıb və dövlət rəhbərimiz öz çıxışında qeyd edib ki, bu gün işləmək istəyən özü üçün iş tapa bilər.

### "2004-cü ildən başlayaraq infrastruktur layihələrinin icrası ilə bağlı qarşıda duran əsas vəzifələrdən biri ərzaq təhlükəsizliyi idi. Artıq bu sahədə kifayət qədər uğurlar, nailiyyətlər əldə olunub"

İnkişaf və tərəqqi Azərbaycanın yaxın gələcəkdə daha da mütərəqqi uğurlara imza atacağı proqnozlarını reallaşdırır. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan ərzaq məhsullarının böyük ixrac potensialına malik olacaq. Belə ki, 2004-cü ildən başlayaraq infrastruktur layihələrinin icrası ilə bağlı qarşıda duran əsas vəzifələrdən biri ərzaq təhlükəsizliyi idi. Artıq bu sahədə kifayət qədər uğurlar və nailiyyətlər əldə olunub.

Ət istehsalı sahəsində də Azərbaycanın tələbatı, demək olar ki, ödənilir. Dövlət rəhbərimiz bununla bağlı qeyd edib ki, Azərbaycan özünü toyuq əti ilə 100 faiz, süd və süd məmulatları ilə təqribən 80 faiz səviyyəsində təmin edir.

O cümlədən, Azərbaycandan böyük həcmdə meyvə-tərəvəz ixrac edilir: "Növbəti illərdə görüləcək tədbirlər nəticəsində, Azərbaycan böyük ixrac potensialına da malik olacaq. Azərbaycanda qırxa yaxın aqropark yaradılır. Yaxın illər ərzində bu aqroparklarda istehsal olunacaq məhsul böyük bazarlara ixrac ediləcək, daxili ərzaq təhlükəsizliyi təmin ediləcəkdir. Azərbaycan xam pambıq, mahlıcla yanaşı, hazır məhsul da ixrac edəcək".



### "2015-ci ildə cəmi 17 min hektarda pambıq əkilirdisə, bu il əkin sahələri 136 min hektara çatdı"

Prezident İlham Əliyev xatırladıb ki, son illər dövlət tərəfindən sosial infrastruktura, ərzaq təhlükəsizliyinə, məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasına, ordu quruculuğuna milyardlarla vəsait qoyuldu: "Ona görə, texniki bitkilərin inkişafı bir qədər diqqətdən kənarda qalmışdı. Bu sahələrə göstərilən diqqət nəticəsində cəmi iki il ərzində dönüş yarandı. 2015-ci ildə, cəmi 17 min hektarda pambıq əkilirdisə, bu il əkin sahələri 136 min hektara çatdı. İstehsal da buna uyğun şəkildə artır və artacaq. Nəinki xam pambıq, mahlıc, eyni zamanda, Mingəçevirdə yaranmaqda olan böyük yüngül sənaye kompleksinin fəaliyyətə başlaması nəticəsində, Azərbaycan hazır məhsul ixrac edəcək. Dövlət strateji kənd təsərrüfatı sahələrinin inkişafı üçün öz dəstəyini davam etdirəcək".

"Bu sahələrin inkişafı həm də sosial layihədir, bu sahələr böyük məşğulluq potensialına malikdir"-deyə qeyd edən dövlətimizin başçısı bildirib ki, Azərbaycanda tütünçülük, baramaçılıq, fındıqçılıq sahələri ilə bağlı çox böyük və zəngin ənənələr vardır: "Bu sahələr uğurla inkişaf edəcək, həm fermerlər, həm də dövlət daha böyük fayda götürəcək. Fındıqçılıq çox gəlirli və valyuta gətirən bir sahədir,fındıq istehsalı ilə bağlı bütün proseslər ölkəmizdə aparılmalıdır. İki il ərzində 18 min hektarda yeni fındıq bağları salınıb. Ötən il ölkədə fındıq istehsalı 34,3 min ton olub. İstehsalçılar 25 minə yaxın ev təsərrüfatını və 22 fındıq emalı müəssisəsini əhatə edir. 80 min hektar sahədə fındıq bağlarının salınması qarşıdakı dövrdə əsas hədəfdir".

### "Tütün istehsalçılarına güzəştli kreditlər verilməlidir"

Tütün istehsalı ilə də bağlı fikirlərini açıqlayan ölkə rəhbəri bildirib ki, tütün istehsalçılarına güzəştli kreditlər veriləcək. Belə ki, artıq 13 rayonda tütün əkini aparılıb: "2016-cı ildə 3,6 min ton tütün tədarük olunub. Bu il tütün əkini sahələrinin 3 min hektara çatdırılması planlaşdırılır. Tütün istehsalçılarına güzəştli kreditlər verilməlidir. Hər rayonda tütün qəbulu məntəqələri və qurutma kameraları yaradılmalı, tütünün ixracı ilə bağlı bazarlar müəyyən olunmalı, ölkədə müasir siqaret istehsal edən fabriklər fəaliyyətə başlamalıdır. 2021-ci ilə qədər tütün əkini daha da genişləndirilməlidir. Tütünçülüklə bağlı çox ciddi proqram qəbul ediləcək".

Fermerlər tərəfindən baramaçılığa çox böyük marağın olduğunu bildirən dövlətimizin başçısı bildirib ki, dövlət baramaçılığın inkişafı ilə bağlı hər şeyi öz üzərinə götürüb, bütün lazımi materiallar, subsidiyalar verilir, tinglər əkilir: "Kümçülər 30-40 gün ərzində yaxşı gəlir əldə edirlər. Ötən il Azərbaycanda 70,7 ton yaş barama, 8,3 ton xam ipək istehsal olunub. Bu ilin sentyabrından ipək xalçaları üçün ipliyin istehsalına başlanacaq. Hazırda 30 rayonda barama istehsal olunur,gələn il 500 ton , 2025-ci ilə qədər 6 min ton barama tədarükü gözlənilir. Damazlıq barama təsərrüfatlarının fəaliyyətinin yaxşılaşdırılması üçün qəbul məntəqələri və yeni ipək kombinatı yaradılmalı, "Şəki İpək" ASC-nin fəaliyyəti daha da gücləndirilməlidir".

### "İlin altı ayının nəticələrinə əsasən, qeyri-neft iqtisadiyyatı, qeyri-neft sənayesi artıb"

Ümumiyyətlə, Azərbaycana birinci altı ayda 5 milyard investisiya qoyulub. Ölkə başçısı bildirib ki, kənd təsərrüfatı ixracı 40 faizdən çox artıb: "Azərbaycan iqtisadiyyatı inkişaf edir. İlin altı ayının nəticələrinə əsasən, qeyri-neft iqtisadiyyatı, qeyri-neft sənayesi artıb. İxrac 36 faiz, qeyri-neft ixracı 27 faiz artıb. Kənd təsərrüfatı ixracı 40 faizdən çox artıb.

Azərbaycan 6 ayda valyuta ehtiyatlarını, nəinki qoruya bilib, görülmüş tədbirlər, düşünülmüş iqtisadi siyasət nəticəsində 3 milyard dollar əlavə valyuta gəlib. Azərbaycana birinci altı ayda 5 milyard investisiya qoyulub. Makroiqtisadi sabitlik təmin edilib. Manatın məzənnəsi sabitdir.

Azərbaycanda idxaldan asılılığı azaltmaq, daxili tələbatı yerli istehsal hesabına təmin etmək və ixrac imkanlarını genişləndirmək üçün qəbul edilmiş proqramlar uğurla icra edilir".

Beləliklə, bir daha əminliklə bu nəticəyə gəlmək olar ki, həyata keçirilən tədbirlər, ilk növbədə, əhalinin rifah halının yaxşılaşmasına və qeyri-neft sektorunun inkişafına xidmət edir. Azərbaycan bu mütərəqqi siyasətlə inkişaf edərək, dünyanın lidelər ölkələri sırasında öz mövqeyini möhkəmləndirir.

**Rövşən NURƏDDİNOĞLU**

# Marginallaşmış və zəhər buraxan antimilli ünsürlər Azərbaycanı ləkələməyə cəhd göstərirlər

**2016-cı ildə qlobal miqyasda cərəyan edən iqtisadi və maliyyə böhranı Azərbaycana da təsirsiz ötüşməmişdir. Böhranlı vəziyyət neft bazarlarında da vəziyyəti ağırlaşdırmış, hətta "qara qızıl"ın qiymətini iki dəfədən artıq aşağı salmışdır. Belə bir halda, əlbəttə ki, Azərbaycanın da gəlirlərində azalmalar müşahidə edilmişdir.**

Lakin sevindirici hal ondan ibarətdir ki, Azərbaycan dünya böhranından ciddi zərər çəkmədi. Yeni Avropanın bir ölkələrinə baxanda, bu gün də maaşlar, pensiyalar, təqaüdlər vaxtlı-vaxtında verilir, sosial layihələr ixtisar edilmir, yaxud sosial sahələr üçün nəzərdə tutulan vəsaitlər dövlət borclarının bağlanmasına sərf edilmir. Eyni zamanda, Azərbaycan hökuməti böhranın təsirlərini zəiflətmək və inkişaf tendensiyasının bərpası məqsədilə kompleks islahatlar da həyata keçirməyə başlamışdır. Təsadüfi deyildir ki, 2016-cı ili "islahatlar ili" də adlandırırlar. Məhz görülən tədbirlərin nəticəsidir ki, makroiqtisadi sabitlik qorunub, qlobal iqtisadi-maliyyə böhranının təsirlərinə, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, ölkədə adekvat korreksiya siyasəti həyata keçirilib.

Azərbaycan rəhbərliyinin düzgün siyasətinin nəticəsi olaraq, "Fitç Reytinqs", "Standart and Puers", "Mudis" beynəlxalq agentliklər ölkəmizin investisiya və kredit reytinqlərini sabit saxlayıblar. Eyni zamanda, Dünya İqtisadi Forumu tərəfindən hazırlanmış hesabatda Azərbaycan 138 ölkə arasında 37-ci yerdə qərarlaşmışdır. Buradan da görünür ki, son 10 il ərzində Azərbaycan 32 pillə irəliləmişdir.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyilə qarşısına qoyduğu vəzifələri yerinə yetirib, mühüm vəzifələr həyata keçirilib. Əlbəttə ki, bütün bunlar əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyasının Prezident İlham Əliyevin uğurlu şəkildə şaxələndirərək davam etdirməsi nəticəsində mümkün olmuşdur.

Lakin o da unudulmamalıdır ki, bugünkü uğurlarımız ağrısız-acısız olmamışdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonrakı 2 il ərzində çox böyük sarsıntılar keçirdi. Torpaqları işğal edildi, etnik-milli parçalanma astanasında durdu, sosial-iqtisadi kollaps dövrü yaşadı. Bütün bunlar heç bir zaman yaddan çıxarılmamalıdır. Elə Prezident İlham Əliyev də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasimdə çıxışı zamanı bildirib ki, AXC-Müsavat cütlüyünün yaratmaz fəaliyyəti nəticəsində, ölkəmiz çox ağır problemlərlə üzləşmişdi: "Şuşa, Laçın, Kəlbəcər rayonları işğal altına düşdü. Beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yarandı. AXC-Müsavat cütlüyü ölkənin ərazi bütövlüyünü müdafiə etmək əvəzinə, Azərbaycanda vətəndaş müharibəsinə start verdi. Gəncəni bombalayırdılar. Orada torpaqlar əldən gedirdi, bunlar da burada öz laxlayan hakimiyyətini saxlamaq üçün Gəncə şəhərini bombalayırdılar. Əlbəttə ki, Azərbaycan xalqı o antimilli hakimiyyətə dözə bilməzdi, cəmi bir il dözə bildi və 1993-cü ildə Heydər Əliyevi hakimiyyətə dəvət etdi".

Təbii olaraq xalqın Ulu Öndər Heydər Əliyevi hakimiyyətə dəvət etməsi gələcəyə olan ümidləri yaşatdı və zaman keçdikcə, bir daha anladıq ki, səhv etməmişik. Məhz yuxarıda söylədiyimiz uğur faktları bir daha isbatladı ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. İstər iqtisadiyyat, istər sosial, istər siyasi, istərsə də hərbi sahədə Azərbaycan geniş uğurlar qazanmaqdadır.

Bu gün Azərbaycanın sürətlə inkişaf etməsi və Cənubi Qafqazın iqtisadiyyatının, maliyyə kütləsinin böyük hissəsini əlində cəmləşdirməsi, eyni zamanda, ən güclü orduya sahib olması ölkəmizi cazibədar aktor kimi beynəlxalq münasibətlər sisteminin gündəminə gətirir. Həm daxili, həm də xarici siyasətdə rasionallığın və praqmatikliyin hökm sürməsi Azərbaycanın əldə etdiyi uğurların davamlı olmasına səbəb olur. Bütün bunlar Azərbaycanın dostlarının sayının artmasına və xalqımızın rifahının yüksəlməsinə səbəb olursa, eyni zamanda, düşmənlərimizin sayının da çoxalmasına impuls verir. Çünki, kreativ və intellektual xalqımız tarixin istənilən dövründə dövlətçilik ənənələrini yaşadıb və reallaşdırıb. Amma bu, həm xarici, həm də daxili düşmənlərimizin heç də maraqlarına uyğun olmadığından dövlətimizin və xalqımız müxtəlif təxribatlarla qarşılaşmışdı. Elə bu gün də eyni ssenari davam etdirilir və antiazərbaycançı mərkəzlərin dəstəyilə radikal müxalifət təxribatlar törətməyə cəhdlər göstərir. Özünü müxalifət adlandıran bir qrup radikallar Azərbaycanı ləkələməyə və uğurlarımıza kölgə salmağa cəhdlər göstərir.

Məsələ ilə bağlı çıxışında "əfsuslar olsun ki, ölkəmizdə fəaliyyət göstərən "beşinci kolon" və xüsusilə, bu gün özünü müxalifət kimi göstərmək istəyən antimilli satqın ünsürlər dövlətimizin ən müqəddəs dəyərlərinə də zərbə vurmağa çalışırlar" söyləyən Prezident İlham Əliyev deyib ki, onlar çalışırlar, amma heç nə alınmır. Ancaq özlərini ifşa edirlər: "Bir daha göstərirlər ki, onlar Azərbaycan dövlətinin düşmənləridir, bir daha göstərirlər ki, dövlətə nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşıdır. Azərbaycan xalqı o antimilli ünsürləri 1993-cü ildə hakimiyyətdən qovub və bu günə qədər onların əlindən bir şey gəlmir. Xaricdən təlimat alanda fəallaşırlar, təlimat almayanda, oturub o təlimatı gözləyirlər. Onların mitinqlərinə, əgər belə demək mümkündürsə, öz qohumlarından başqa heç kim gəlmir. Heç qohumları da gəlmir. Yəni tamamilə marginallaşıb və bir dəstə zəhər buraxan, özünü müxalifət adlandıran ünsür, əlbəttə ki, bizim işimizə təsir göstərə bilməz. Ancaq çalışırlar ki, bizim inkişafımızı, dövlətimizin uğurlarını, ordumuzu ləkələsinlər. Bizim ordumuz keçən il göstərdi ki, nəyə qadirdir və Azərbaycan Ordusu işğal edilmiş torpaqları hər an azad etməyə qadirdir. Ordu quruculuğunun təməlini Heydər Əliyev qoymuşdur. Biz isə onun davamçılarıyıq, bu yolla gedirik və ordumuz üçün nə lazımdırsa, onu da edəcəyik".

**"Səs" Analitik Qrupu**

# Yevlaxda baramaçılığın inkişafı diqqət mərkəzindədir

*Yevlaxda "Barama, tütün və fındıq istehsalının inkişafı" məsələlərinə dair respublika müşavirəsinin yekunları və qarşıda duran məsələlərə həsr olunmuş rayon müşavirəsi keçirilib*

**Yevlax şəhərində 4 avqust 2017- ci il tarixdə Qax şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə "Barama, tütün və fındıq istehsalının inkişafı" məsələlərinə dair respublika müşavirəsinin yekunları və qarşıda duran məsələlərə həsr olunmuş rayon müşavirəsi keçirilib. Müşavirədə rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, Yevlax şəhər icra hakimiyyəti başçısının İnzibati ərazi dairələri üzrə nümayəndələri, bələdiyyə sədrləri və sahibkarlar iştirak edib.**



Toplantını giriş sözü ilə açan Yevlax şəhər icra hakimiyyətinin başçısı Qoca Səmədov Qax şəhərində keçirilən respublika müşavirəsinin yekunları, qarşıdan duran vəzifələr və digər önəmli məsələlərdən danışıb. Şəhər icra hakimiyyətinin başçısı Qaxda keçirilən müşavirənin ölkəmiz üçün önəmindən danışaraq bildirib ki, ölkə Prezidenti İlham Əliyevin göstərişlərinə əsasən, bu gün Azərbaycanda kənd təsərrüfatının inkişafının yeni bir dövrü başlayıb. İcra başçısı qeyd edilib ki, vaxtilə sıradan çıxmaq üzrə olan pambıqçılıq bu gün artıq özünün inkişaf mərhələsini keçir. Ölkəmizdə tütünçülüyün və baramaçılığın inkişafının da yeni mərhələsi başlayıb. Bütün bunlara Cənab Prezidentin qətiyyətli addımları nəticəsində nail olundu. İcra başçısı bildirdi ki, bu gün Yevlaxda kənd təsərrüfatının inkişafı ilə bağlı bir çox işlər görülür, sosial layihələr həyata keçirilir. Əsas məqsəd kədlərdə yaşayan əhalinin səmərəli məşğuliyyətini təmin etmək və beləcə, kənd əhalisini işlə təmin etməkdir. İcra başçısı yevlaxlıların da kənd təsərrüfatının inkişafında xidmətlərinin danılmaz olduğunu bildirib. Qoca Səmədov qeyd edib ki, Yevlaxda baramaçılığın inkişaf etdirilməsi üçün tədbirlər həyata keçirilir. Prezident Cənab İlham Əliyevin regionların özünü maliyyələşdirməsi, mövcud iqtisadi potensialdan daha səmərəli istifadə edilməsi, ixracyönümlü istehsal müəssisələrinin yaradılması ilə bağlı verdiyi tapşırıqların icrası istiqamətində Yevlaxda da lazımi işlər görülür. Bu məqsədlə kənd təsərrüfatının yüksək gəlir gətirən sahələrindən olan baramaçılığın əvvəlki şöhrətini qaytarmaq üçün dövlətimizin başçısının tapşırığına əsasən, ölkənin bütün bölgələrində olduğu kimi, Yevlax şəhərində də bu sahəyə ciddi diqqət göstərilir və baramaçılığın, fındıqçılığın və pambıqçılığın inkişafına dair tapşırıqların icrası Yevlax şəhərində ciddi nəzarətdə saxlanılır. Müşavirə sahbkarlar və kənd sakinləri ilə şəhər rəhbərliyinin dialoqu ilə davam etdirildi.



**RƏFİQƏ**

# Ekspert: "Ermənistan iqtidarı terrorçulardan ibarət qruplaşmaların əlindədir"



"7 avqust tarixində Ermənistan silahlı qüvvələri Tovuz rayonunun Qaralar kəndini atəşə tutublar. Hadisə nəticəsində bir dinc sakin yaralanıb. Yaralanan şəxs 2004-cü il təvəllüdlü Yusifov Ramin Sabir oğludur". Hadisəyə münasibət bildirən Azərbaycan-Slavyan Gəncləri Assosiasiyasının sədri, internet-media ekspert Səbuhi Abbasov SİA-ya açıqlamasında deyib ki, Alxanlı faciəsindən sonra Ermənistan öz aqressiv və terrorçu simasını bir daha nümayiş etdirmiş oldu: "Hadisə baş verərkən balaca Ramin öz həyətlərində oynayırmış. Qəfil həyətə mərmi düşüb. Mərminin qəlpələri Yusifov Ramini ağır şəkildə yaralayıb. Hər iki faciə bir daha onu göstərir ki, erməni terrorçuları artıq açıq şəkildə fəaliyyətə keçiblər. Əslində bu günə qədər BMT kimi qurumun 4 qətnaməsini saymayan bir dövlətdən başqa nə gözləmək olar ki? Son statistikaya görə ermənilər arasında yoxsulluq pik həddə çatıb, demoqrafiq böhran başlayıb, ölkəni kriminal avtoritet rejim idarə edir. Sıravi erməni vətəndaşları bu reallığı çox gözəl dərk edirlər. Artıq onlar öz övladlarının Azərbaycan torpaqlarında qeyri-qanuni hərbi xidmət keçməsinə dəfələrlə etiraz ediblər. Ermənistan ordusunda intiharlar və kriminal hadisələr günü-gündən çoxalır. Belə bir məqamda hər zaman olduğu kimi Sarkisyan rejimi öz çirkin, terrorçu xislətini büruzə verir. Mülki əhali, xüsusən də azyaşlı yerlilərimiz hədəf seçilərək qətlə yetirilirlər. Bu və bu kimi faktlar bizə imkan verir ki, Xocalı soyqırımını dünyada tanıdaq. Bütün dünya bilməlidir ki, hazırki Ermənistan iqtidarı terrorçulardan ibarət qruplaşmaların əlindədir. Bu tək Azərbaycan, tək bölgə üçün deyil, bütün dünya təhlükəsizliyi üçün ciddi təhdiddir"

# Anti-milli düşüncə, yaxud iqtisadi savadsızlıq...

*Cəmiyyətə özünü iqtisadçı kimi sırıyan bəziləri Azərbaycanda həyata keçirilən iqtisadi siyasəti hədəfə almaqla, ölkəmizə qarşı “qara piar” aparan anti-Azərbaycan dairələrlə sinxron fəaliyyət göstərmiş olurlar*

***Bu gün dünyada davam edən qlobal iqtisadi böhran ayrı-ayrı ölkələrdə ciddi problemlər yaratmaqdadır. Sevindirici haldır ki, Azərbaycan bu böhranlı vəziyyətdən az itkilərlə çıxmağı bacardı. 2017-ci il üçün dünya ölkələrinə bədbin proqnozlar verilməsinə baxmayaraq, Azərbaycan bu ilin ilk rübündə inkişaf göstəriciləri ilə yadda qaldı, makroiqtisadi sabitliyini qoruyub saxladı. 2017-ci ilin birinci rübünün yekunları onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çox dinamik şəkildə inkişaf edir.***

Bunu sözügedən dövrdə iqtisadi prosesləri ifadə edən rəqəmlər də təsdiqləyir. Məsələn, cari ilin ilk rübündə iqtisadiyyatın qeyri-neft sektoru 2,4 faiz artıb, qeyri-neft sənayemizin artımı 2 faiz səviyyəsində olub. Bu dövrdə kənd təsərrüfatı 3,5 faiz artıb. Birinci rübdə ölkəmizin valyuta ehtiyatları 1 milyard dollar səviyyəsində artıb. Hazırda Azərbaycanın valyuta ehtiyatları 38,5 milyard dollardır. Bu ilin üç ayında ticarət dövriyyəsi 15 faiz, ixrac təxminən 50 faiz artıb. Bütün bunlar isə Azərbaycan Prezidenti İlham Əliyevin vaxtında qəbul etdiyi rasional və praqmatik qərarların düzgün şəkildə icra edilməsinin nəticəsidir.

Bu gün Azərbaycan beynəlxalq miqyasda sabitlik adası kimi xarakterizə olunur, ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi sabitliyin, təhlükəsizliyin və tərəqqinin qarantı kimi çıxış edir. Azərbaycanın əldə etdiyi nailiyyətlərə nəzər saldıqda əminliklə söyləmək olur ki, qazanılmış bütün uğurların təməlində məhz həyata keçirilən uğurlu daxili və xarici siyasət kursu dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kursun qanunauyğun nəticəsi kimi, Azərbaycan özünəməxsus milli inkişaf modeli ortaya qoyub. Milli inkişafın Azərbaycan modelinin formalaşdırılması və səmərəli iqtisadi siyasət sayəsində hədəflənən nəticələrin əldə olunması, sosial-iqtisadi islahatların mütəmadi qaydada həyata keçirilməsi, həmçinin digər bu kimi tədbirlər müxtəlif sahələrdə dayanıqlı inkişaf üçün etibarlı zəmin yaratmaqla yanaşı, perspektiv tərəqqinin əsaslarını formalaşdırıb. Bununla yanaşı, neft gəlirlərinin səmərəli idarə edilməsi, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun tərəqqisi, regionların tarazlı inkişafı, özəl sektorun inkişaf etdirilməsi və sahibkarlığa dövlət dəstəyi kimi fundamental tədbirlər dayanıqlı iqtisadi inkişafın təmin olunması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Təbii olaraq bu cür vəziyyət isə ictimaiyyət tərəfindən razılıqla qarşılanır. Şübhəsiz ki, bütün bu reallıqlar və nailiyyətlər müəyyən qüvvələrdə narahatlıq və qısqanclıq yaradır. Onlar Azərbaycanın uğurlarının üzərinə kölgə salmaq, həyata keçirilən siyasətə qara yaxmaq üçün canfəşanlıq edirlər. Çox təəssüflər olsun ki, hər zamanki kimi bu gün də Azərbaycanın nailiyyətlərinə kölgə salmağa çalışan qüvvələr ölkəmizdə də tapılmaqdadır. Ən çox təəssüf doğuran məqam isə ondan ibarətdir ki, Azərbaycan ictimaiyyətində bədbinlik yaratmağa hesablanmış “proqnozlar” verən qüvvələrin sırasında vaxtilə dövlət vəzifəsində çalışmış, bu gün də qanunverici orqanda 40 minlik seçicini təmsil edən deputatlar da yer almaqdadır. Məsələ ilə bağlı mətbuata açıqlamasında YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov bildirib ki, bəzi şəxslərin siyasi səbatsızlığı onların peşə fəaliyyətinə də sirayət etməkdədir. Bu tip adamlar “hər dövrün adamı” olmaq xüsusiyyətinə malikdirlər. Özlərini iqtisadçı adlandıran bu cür şəxslər son zamanlar ölkəmizdə həyata keçirilən pul-maliyyə siyasətini, iqtisadi kursu hədəf alan bəyanatlarla çıxış etməklə ictimai çaşqınlıq yaratmağa çalışırlar. Bu şəxslərin vaxtaşırı ölkə iqtisadiyyatı ilə bağlı bədbin proqnozlar səsləndirməsi, hakimiyyət komandasını hədəfə alan fikir və bəyanatlarla çıxış etməsi təsadüfi xarakter daşımır. Onlar məqsədyönlü şəkildə Azərbaycanda həyata keçirilən iqtisadi siyasəti hədəfə almaqla, əslində, ölkəmizə qarşı “qara piar” aparan anti-Azərbaycan dairələrlə sinxron fəaliyyət göstərmiş olurlar: “Onu da qeyd edim ki, əsas etibarilə, nüfuzlu və mötəbər beynəlxalq tədbirlər zamanı anti-Azərbaycan dairələr fəallaşaraq ölkəmizə qarşı təbliğat aparırlar. Məhz belə bir dönəmdə ölkəmizdəki “beşinci kolon” nümayəndələrinin fəallaşması da müşahidə olunur. Bu şəraitdə “hər dövrün adamı” olmaq xüsusiyyətinə malik olan, özlərini iqtisadçı adlandıran şəxslərin Azərbaycan iqtisadiyyatını hədəfə alması, hətta anti-Azərbaycan qüvvələrin səsləndirdiyi bəyanatlara uyğun fikirlərlə çıxış etməsi onların qərəzli yanaşmasını, dövlətimizə münasibətini əks etdirir. Bütün hallarda bu, yolverilməzdir və Azərbaycan ictimaiyyəti tərəfindən narazılıqla qarşılanır”.



Özlərini cəmiyyətə “iqtisadçı” kimi sırımağa çalışan belələrinin ölkəmizdə həyata keçirilən iqtisadi siyasəti, eləcə də iqtisadi komandanın fəaliyyətini tənqid obyektinə çevirməsi tamamilə əsassız və qəbuledilməzdir. Çünki Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi siyasət sayəsində bütün sahələrdə ardıcıl, davamlı uğurlar əldə edilib, dayanıqlı inkişaf təmin olunub. Azərbaycanın iqtisadi siyasətinin uğurları beynəlxalq müstəvidə ayrı-ayrı maliyyə institutları və qurumları tərəfindən yüksək qiymətləndirilir. Belə olan halda, onların bu cür mövqeyi qərəzli, qeyri-obyektiv yanaşmadan başqa bir şey deyil.

Siyavuş Novruzov bir məqamı da diqqətə çatdırıb ki, Ayaz Mütəllibovun və AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə yüksək dövlət vəzifəsində çalışan belələrinin insanları ərzaq əvəzinə toyuq yemi ilə “təmin” etməsi hər kəs tərəfindən yaxşı xatırlanır: “Həmin dövrdə iqtisadi siyasətə rəhbərlik edən komandanın başında olan şəxslərin ölkə büdcəsini talan etməsi, Azərbaycan iqtisadiyyatının çökməsinə səbəb olan işlərin altına imza atması da reallıqdır. Müxtəlif dövrlərdə ayrı-ayrı siyasi komandaların tərkibində yer alan və əsas etibarilə, yüksək dövlət vəzifəsi tutan, ölkə iqtisadiyyatına çoxsaylı zərərlər vuran, insanları aclıq və səfalətlə sınağa çəkən bu şəxslərin indi bu cür “iqtisadi nağıllar”la çıxış etməsi gülüncdür. O dövrdə Azərbaycanın qarşılaşdığı maliyyə-iqtisadi problemlərin nəticələri, ölkəmizin acınacaqlı durumu hər kəsin yadındadır. Hazırda isə Azərbaycan hakimiyyətinin fəaliyyəti nəticəsində ölkəmizin inkişafı - əldə edilən nailiyyətlər göz önündədir. Belə olan halda, həmin dövrdə Azərbaycan iqtisadiyyatının acınacaqlı durumunun müəlliflərindən olanların indiki müsbət reallıqları tənqid obyektinə çevirməsi sadəcə gülüş doğurur”.

Bir sözlə, cəmiyyət şəxsi biznes maraqlarını ölkəmizin mənafeyindən üstün tutan belələrinin Azərbaycanı, onun inkişafını hədəfə alan fikirlərini qeyri-ciddi və əsassız, absurd yanaşmalardan ibarət olan qərəzli münasibət kimi dəyərləndirir. Azərbaycan cəmiyyəti belələrinin xalqımız və dövlətimizə qarşı çıxış edən “beşinci kolon” və anti-Azərbaycan dairələrlə paralel və koordinasiyalı fəaliyyət göstərdiyini bilərək bu qüvvələrə öz etirazını bildirir.

***“Səs” Analitik Qrupu***

## Bakıda Avropa Tolerantlıq Festivalı keçiriləcək

Oktyabrın 12-də Bakıda Avropa Tolerantlıq Festivalı keçiriləcək. Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin təşəbbüsü ilə reallaşacaq festival oktyabrın 20-dək davam edəcək. Bu barədə SİA-ya Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyindən məlumat verilib.

Bildirilib ki, festival çərçivəsində tanınmış mədəniyyət və incəsənət xadimlərinin çıxışı, debatlar, müzakirələr, həmçinin Avropa tolerantlığı barədə 15 sənədli filmin nümayişi və bir sıra fotosərginin təşkili nəzərdə tutulur. Festival Avropa İttifaqının əsasını qoyan Roma Sazişinin imzalanmasının 60 illiyi münasibətlə təşkil olunacaq.



# “Dəniz kuboku - 2017” beynəlxalq müsabiqəsinin bağlanış mərasimi olub

Dünən Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində III Beynəlxalq Ordu Oyunları çərçivəsində təşkil edilən “Dəniz kuboku - 2017” beynəlxalq müsabiqəsinin təntənəli bağlanış mərasimi keçirilib. SİA-nın verdiyi məlumata görə, mərasimdə yarış iştirakçıları, ictimaiyyət nümayəndələri, hərbçilər və xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş nümayəndələri iştirak ediblər. Əvvəlcə Azərbaycan və “Dəniz kuboku - 2017” haqqında videoçarx nümayiş etdirilib. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, dövlət bayrağımız qaldırılıb. Yarışların hakimlər briqadası, komandalar mərasimə dəvət olunub iştirakçı dövlətlərin bayraqları gətirildikdən sonra müsabiqədə yer tutan komandalar təqdim olunub. Bundan sonra “Dəniz kuboku - 2017” beynəlxalq müsabiqəsinin qalibləri elan edilib və qalib komandalar fəxri kürsüyə dəvət olunub. Bildirilib ki, hakimlər kollegiyası tərəfindən verilən balların ümumi nəticəsinə görə Azərbaycan və Rusiya hərbi dənizçiləri müsabiqənin qalibləri elan edilib. Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev və Rusiya Federasiyası Müdafiə nazirinin müavini, general-leytenant Aleksandr Fomin komandalara mükafatları təqdim ediblər.







Müsabiqədə 1-ci yer tutmuş Azərbaycan və Rusiya komandalarının şərəfinə hər iki ölkənin dövlət himnləri səsləndirilib. Mərasimdə çıxış edən Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev tədbir iştirakçılarını salamlayaraq onlara Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təbriklərini çatdırıb. “Dəniz kuboku - 2017” beynəlxalq müsabiqəsinin yüksək səviyyədə təşkil olunaraq keçirildiyini qeyd edən general-leytenant K.Vəliyev müsabiqənin Xəzəryani ölkələrin hərbi dənizçilərinin daha yaxından tanış olmaları, qarşılıqlı münasibətlər və əməkdaşlığın gücləndirilməsi, hərbçilər arasında dostluq və qardaşlıq mühitinin yaranmasına xidmət etdiyini xüsusi vurğulayıb. Nazir müavini iştirakçılara uğurlar diləyərək “Dəniz kuboku - 2017” beynəlxalq müsabiqəsini bağlı elan edib. Sonra hər komandadan bir nəfərin iştirakı ilə III Beynəlxalq Ordu Oyunlarının və “Dəniz Kuboku - 2017” yarışlarının bayraqları endirilib. Bağlanış mərasimindən sonra iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlərin iştirakı ilə “Dəniz kuboku - 2017” beynəlxalq müsabiqəsinin yekun mətbuat konfransı keçirilib. Mətbuat konfransında müsabiqənin yüksək səviyyədə təşkili və keçirilməsi üçün yaradılan şərait, texniki dəstək qruplarının fəaliyyəti, hakimlər kollegiyasının işi və müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə iştirakçı ölkələrin komandalarının nəticələri barədə ətraflı məlumat verilib, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# Aİ-nin yeni inteqrasiya konsepti: 4 səviyyəli funksional struktur

***Bir neçə ildir ki, Qərb mütəxəssisləri Avropa İttifaqının gələcəyi ilə bağlı müxtəlif proqnozlar verirlər. Burada bədbin sonluqdan tutmuş, nikbin modellərə qədər çoxsaylı yanaşmalar özünü göstərir. Analitiklərin arasında fikir müxtəlifliyinin olması Aİ-nin özünün qeyri-müəyyənliklər içində olması ilə izah oluna bilər. Bu bağlılıqda tanınmış analitik Cozef Nayın (kiçik) mövzu ilə bağlı fikirləri təbii maraq doğurur. Onun son məqalələrinin birində maraqlı və aktual tezislər irəli sürüldüyündən, biz onların Avropa İttifaqının gələcəyi kontekstində analizinə ehtiyac duyuruq. Nəzərə almaq lazımdır ki, C.Nayın da fikirləri mümkün versiyalardan yalnız biridir. Yəni onları daha çox düşünmək üçün oxumaq lazımdır. Həqiqətin harada olduğunu isə zaman göstərəcək.***




## Tramp və Aİ: gözlənilməz dəyişiklik?

Cozef S.Nayın (kiçik) "Project Syndicate" nəşrində analitik məqaləsi dərc olunub. Yazı bir neçə aspektdən maraq doğurur. Tanınmış analitik Avropa İttifaqının gələcəyinə Donald Trampın siyasi kimliyi və Aİ-yə olan təhdidlər prizmasından nəzər salıb. Onun irəli sürdüyü tezislər kifayət qədər aktualdır. C.S.Nay Avropanın siyasi taleyinin ziddiyyətli məqamlarla xarakterizə olunduğunu ifadə edir. Bununla yanaşı, özünü göstərməkdə olan müəyyən müsbət tendensiyanın da meydana gəldiyini yazır.

Müəllif ekspertlər üçün bəlkə də bir qədər gözlənilməz olan fikir irəli sürür. Belə ki, C.S.Nayın fikrincə, D.Trampın Avropada populyarlığının aşağı olması Avropa dəyərlərinin möhkəmlənməsinə təkan verir! Fransada təşkil edilmiş konfransların birində avropalı bir sıra ekspertlərin "əslində, Donald Tramp Avropa üçün faydalı ola bilər" tezisini ifadə etməsinə təəccüblənən az deyildi (bax: Joseph S. Nye. Trump's Gift to Europe / "project-syndicate.org", 6 iyul 2017). C.Nay isə bu tezisi əsaslandırmağa çalışır.

Bu aspektdə D.Trampın Avropa üçün bir "hədiyyə" olduğunu vurğulayır. Praktiki olaraq, Trampın prezidentliyi Avropa üçün bütün aspektlərdə bir dəhşətdir. C.Nayın yazdığına görə, Amerika prezidenti Aİ-yə nifrət edir. Onun Angela Merkel ilə münasibətləri soyuqdur, əvəzində, Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinlə dostluq edir.

D.Tramp Böyük Britaniyanın Avropa İttifaqından çıxmasını alqışlayıb və "indi kimin növbəsidir?" kimi məşhur sualın müəllifidir. Bunlardan başqa, ABŞ-ın Paris iqlim müqaviləsindən çıxdığını bəyan edib, NATO-da qarşılıqlı müdafiə məsələlərinə ürəkdən yanaşmır və BMT-nin maliyyələşdirilməsini azaldıb. Bütün bunlar Avropanın maraqlarına ziddir.

Deyilənlərin nəticəsidir ki, "Pew Research Center" tədqiqat mərkəzinin apardığı sorğuya görə, britaniyalıların yalnız 22%-i, fransızların 14%-i və almanların 11%-i ona inanır (bax: əvvəlki mənbəyə). Burada nəzərə almaq lazımdır ki, inamsızlıq Amerikaya deyil, D.Trampın şəxsinə və siyasətinədir. Lakin aydındır ki, Trampın populyarlığı avropalılar arasında çox aşağıdır. O, faktiki olaraq, avropalı sağçılarla eyni sırada durur. Deməli, əslində, avropalıların təsəvvürlərində D.Trampın sağçı siyasi hərəkatın lideri kimi obrazı qalmaqdadır.

Ancaq bu obraz Avropada keçirilən bir sıra seçkilərin nəticələrinə görə, elə də təsirli deyil. Çünki Aİ-nin böyük dövlətlərinin hamısında sağçılar məğlub oldular. Onlara ən böyük zərbə Fransada dəydi. Hollandiya, İtaliya və Avstriyada da acı məğlubiyyətə uğradılar. "Sərt" "Brexit" tərəfdarı Mey isə iyunda Böyük Britaniyada parlament seçkisində yerlərin çoxunu itirdi. İndi ekspertlər hesab edirlər ki, Almaniyada sentyabrda olacaq seçkidə mötədil siyasətçi qalib gələcək. İfrat sağ təmayüllü millətçi qüvvələrin lideri Frauke Petrinin uğur qazanmaq şansı yoxdur.

Bütün bunların fonunda Avropa İttifaqında sosial-iqtisadi vəziyyət elə də dəyişməyib. Hələ də iqtisadi inkişafın aşağı tempi, işsizliyin yüksək faizi və siyasi dağınıqlıqla mübarizə aparılır. Bu proses 2008-ci ildən davam edir. "Brexit"in yaratdığı ziddiyyətlər də hələ qalmaqdadır. Burada daha aktual olan insanların sərbəst hərəkəti ilə məhsulların azad dövriyyəsi arasında ortaq nöqtənin tapılmaması ilə bağlıdır. Belə ki, Böyük Britaniya miqrant məsələsində Aİ-nin digər üzvlərindən fərqli mövqedədir. Burada insanların sərbəstliyinin məhdudlaşmasını təmin etməklə bazarın açıq olmasını istəyirlər.

Aİ isə həm insanların sərbəst hərəkətinə, həm də malların azad dövriyyəsinə tərəfdardır. Hazırda bu mövqelər arasında kompromis tapmağa çalışırlar. Ekspertlər bunu təşkilatın taleyində mühüm rol oynaya biləcək faktor hesab edirlər. Onlar bunun əsasında Aİ-də inteqrasiya prosesinin məzmununun dəyişdirilməsi zərurətinin meydana gəldiyini deyirlər. Konkret olaraq, Aİ daxilində tam sərbəstlik, xarici mühitlə isə məhdudlaşdırıcı kurs təklif edirlər. Buna praktiki nail olmaq üçün isə çevik siyasət yeritmək lazımdır. Hələlik avropalılar buna nail ola bilməyiblər.

## "Xüsusi Avropa təşkilatı": yeni inteqrasiya konsepti

Buradan, ümumiyyətlə, Avropada inteqrasiya fəlsəfəsinin yeniləşməsinə olan ehtiyac aydın görünür. İndiyə qədər bu fəlsəfədə əsas hədəf "maksimum sıx ittifaq" prinsipi hesab olunurdu. Buna federal siyasi quruluş da demək olar. Buna üzv dövlətlərin "müxtəlif sürət"lə inkişafı əsasında nail olunacağına inanırdılar. Hazırda federalizmi başqa prinsiplə əvəz etmək və fərqli sürət metaforasını isə fərqli səviyyələr metaforası ilə əvəz etmək barədə düşünürlər.

Federalizmin yerinə nə olacağı tam aydın deyil. Bu bağlılıqda bir neçə ssenaridən bəhs edilir. Onlar haqqında avropalı mütəxəssislər bir neçə formul irəli sürüblər. Aİ-nin zəifləməsi, hətta dağılması, onun indiki səviyyədə qalması və daha da inkişaf etməsi kimi 4 ssenari haqqında yazırlar. Hər bir halda fərqli variantlardan bəhs edilirsə, bu, təşkilatla bağlı qeyri-müəyyənliyin olması əlamətidir. Cozef S.Nay da məhz bunu nəzərdə tutaraq inteqrasiya fəlsəfəsinin yeniləşməsindən və yeni quruluş formasından danışır. Özlüyündə nəzəri və praktiki olaraq düşündürücü yanaşmadır. Bu, həm də ayrıca təhlil mövzusudur.

Burada onu qeyd edək ki, mütəxəssislər federalizmi "xüsusi (sui generis) Avropa təşkilatı" ilə əvəz etmək barədə yazırlar (bax: əvvəlki mənbəyə). Bu "xüsusi"nin konkret hansı məzmun daşıdığı məlum deyil. Lakin həmin kontekstdə aşağıdakı 4 əməkdaşlıq (yaxud inteqrasiya) səviyyəsinin zəruriliyi vurğulanır: birincisi - gömrük ittifaqı, ikincisi - vahid Avropa valyutası, üçüncü - daxili sərhədləri ləğv edən Şengen müqaviləsi və nəhayət, ortaq müdafiə konsepsiyası (bax: əvvəlki mənbəyə).

Müqayisə əsasında görə bilərik ki, doğrudan da bu yanaşma federalizmdən ciddi surətdə fərqlənir. Ümumi nəzəri səviyyədə federalizm struktur birliyi ideyasına dayanırsa, "xüsusi Avropa təşkilatı" funksionallıq ideyasına əsaslanır. Gömrük, maliyyə, hərəkət sərbəstliyi və müdafiə ayrı-ayrı funksiyalardır. Onlar arasında balans yaratmaq inteqrasiyaya federalizmdən fərqli yanaşma tələb edir. Bu isə kifayət qədər yeni məqamların nəzərə alınması zərurətini ortaya atır. Həmin məqamlar üzərində geniş dayanmaq imkanı yoxdur.

Lakin Aİ-nin ortaq müdafiə konsepsiyasını şərtləndirən əsas təhlükələr üzərində dayanmaq olar. Bunlar Rusiyadan qaynaqlanan təhlükələr, Balkanlar, Yaxın Şərq və Şimali Afrikadan gələn təhdidlərdir (bax: əvvəlki mənbəyə). Aİ-nin indi bu təhlükənin öhdəsindən gəlmək imkanları məhduddur. Yalnız Böyük Britaniya və Fransa milli sərhədlərdən kənarda əməliyyat keçirmək üçün geniş imkanlara malikdirlər. Məlumdur ki, Almaniyaya belə bir ixtiyar verilmir. Deməli, əslində, Aİ-nin özünümüdafiə üçün NATO-ya ciddi ehtiyacı vardır. Bu da başqa bir kontekstdə yenidən ABŞ-Avropa münasibətlərini aktuallaşdırır.

Hər bir halda avropalılar özünümüdafiə üçün xüsusi hərbi struktur yaratmaq qərarına gəliblər. Bununla da Aİ-də yeni inteqrasiya ideyasının tarixi sınağı başlamış olur. Həmin prosesin necə sonuclanacağını proqnozlaşdırmaq çətindir. Çünki qlobal geosiyasətdə və ayrılıqda Qərbdə qeyri-müəyyən parametrlər hələ çoxdur. Mütəxəssislər yeni risklərdən də bəhs edirlər.

İndi avropalılar meydana çıxardıqları yeni qarşılıqlı əlaqələr konseptinə konkret məzmun verməlidirlər. Əslində, bu mövqenin təməlində Qərb elmində keçən əsrin 70-ci illərində formalaşmış sosioloji və geosiyasi-nəzəri sistemlərin durduğunu anlayırıq. Bu nəzəri sistemlər kifayət qədər səmərəli və maraqlıdır. Ancaq mövcud ideyaların praktikaya tətbiqi ayrıca fəaliyyət tələb edir. Burada isə dünya sistemində baş verənləri nəzərə almaq son dərəcə vacibdir. Məsələnin məhz bu tərəfi Avropa İttifaqının gələcəyi aspektində olduqca aktual və ziddiyyətli məqamlarla xarakterizə olunur. Cozef Nayın məqaləsinin məntiqindən bu qənaət əldə edilir. Sual hələ də açıq qalır.

**Newtimes.az**

# Vyana görüşü baş tutmayacağı halda...

*Ermənistan tərəfi bütün şanslarını itirəcəyindən təlaşa düşüb*

***Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan, bu günlərdə bəyan edib ki, prezidentlərin ilin sonuna qədər keçirilməsi gözlənilən görüşləri barədə, hələ ki, heç bir razılaşma yoxdur. Bununla yanaşı, erməni nazir bildirib ki, velosiped ixtira etməyə ehtiyac yoxdur, danışıqları mövcud olan məsələ ətrafında aparmaq lazımdır və danışıqlara alternativ də yoxdur.***



Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev və Serj Sarkisyan arasında keçirilməsi ehtimal edilən görüşün ideyası ətrafında, bir neçə gün öncə, Brüsseldə Məmmədyarov-Nalbandyan görüşündə söhbət aparılıb. Erməni mətbuatı - "1in.am"ın analitik bölməsində yazır ki, S.Sarkisyan növbəti görüşün keçirilməsinə qarşı olmadığını desə də, həmin görüşdən böyük gözləntilərinin olmadığını da bildirib.

## Ermənilərin əsas qorxusu: "Rəsmi Bakı susqunluğunu qoruyub-saxlayır"

Adıçəkilən mətbuat ona da işarə edib ki, Azərbaycan Prezidenti İlham Əliyev sözügedən görüşün mümkünlüyü barədə heç bir fikir səsləndirməyib və bununla bağlı rəsmi Bakı, hələ ki, susqunluğunu qoruyub-saxlayır. "Bu, onu göstərə bilərmi ki, Ermənistan hazırdır, Azərbaycan isə, hələ ki, yox və buna görə ortada heç bir razılaşma da yoxdur? Əgər belədirsə, onda Azərbaycan niyə razı deyil?"-deyə sual edilən analitik məqalədə bildirilir ki, Bakı Vyana təklifləri ilə razı deyil, hansı ki, bu təklifləri daha çox dəstəkləyənlər ATƏT-in Minsk Qrupunun amerikalı və fransalı həmsədrləridir. Bununla erməni media qurumu sözügedən analitik yazıda Bakının rəsmi mövqeyini "bazarlaşma", yaxud da "şantaj" kimi qələmə verməyə cəhd edir.

Onu da xatırlatmaq yerinə düşərdi ki, əslində, işğalçı tərəf öz təxribatlarını, xüsusilə, cəbhəyanı ərazilərdə mülki vətəndaşlarımızı hədəfə almasını müxtəlif şantaj xarakterli yollarla pərdələməyə cəhdlər göstərir. Daha doğrusu, ermənilər təxribat törətdiklərini yaxşı bilsələr də, Azərbaycan Ordusunun cavab atəşindən vahiməyə düşürlər, bu səbəbdən də, silahlı qüvvələrini ittiham edirlər. Eyni zamanda, işğalçı ölkə indidən, belə bir ehtimalla çıxış edir ki, Azərbaycan Ordusu genişmiqyaslı hücum əməliyyatlarına hazırlaşır. Əslində, bu, yenilik deyil və Azərbaycan tərəfi ən ali dərəcədə bəyan edib ki, işğal altındakı torpaqlarımız qısa müddət ərzində azad olunmazsa, müharibə variantı qaçılmaz olacaq.

Başqa tərəfdən, erməni mediası Azərbaycanın dövlət başçısının Sarksyanla növbəti görüşünə elə də maraq göstərməməsini bu amillə "sübut" etməyə çalışır.

## Ermənilər ondan da ehtiyat edirlər ki, Bakı və Moskva, minimal olsa belə, ortaq maraqları bölüşürlər

Daha bir maraqlı məqam ondadır ki, Vyana razılaşması ətrafında söz oyunu oynayan erməni mediası, onun yalnız Bakıya deyil, Rusiyaya da sərf etmədiyini yazır. Ona görə ki, Rusiya, eyni zamanda, münaqişə tərəflərinə silah satır və s. Başqa tərəfdən, iddia edilir ki, Rusiya Qarabağ münaqişəsinə Ermənistana təsir gücünü saxlamaq qismində yanaşır. Məhz Vyana razılaşması qüvvəyə minərsə, rəsmi Moskva bu alətini itirməli olacaq. Sonda isə, bildirilir ki, aprel müharibəsindən sonra Rusiya erməni ictimaiyyəti qarşısında pis vəziyyətdə qalıb. Üstəlik, sonrakı proseslərdə Rusiya ilə Azərbaycan arasında münasibətlər istiləşib. Ermənilər ondan da ehtiyat edirlər ki, Bakı və Moskva, minimal olsa belə, ortaq maraqları bölüşürlər. Bu faktor erməniləri son günlər ciddi şəkildə narahat etməkdə davam edir.

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənistanı dəhşətli fəlakət gözləyir

*Arzu Nağıyev: "İkili standartlar yenə də öz rolunu oynayır"*

***- Arzu müəllim, bu günlər cəbhədə ermənilərin açdığı atəş nəticəsində, növbəti bir Azərbaycan gənci yaralandı. Sizcə, Sarkisyan rejiminin mülki əhalini hədəfə alması dünya birliyinə meydan oxuduğunun göstəricisi sayıla bilərmi?***



**Müsahibimiz politoloq Arzu Nağıyevdir**

- Məlum məsələdir ki, bu təxribatların hamısının əsas səbəbi danışıqlar prosesini pozmaq və status-kvonu saxlamaq üçün məqsədli şəkildə atılan addımlardır. Bununla onlar həm Ermənistanda hazırkı vəziyyətdə yaranmış gərginliyin qarşısını almağa, həm də, separatçı rejimə yarınmağa çalışırlar. Əsas məsələlərdən biri də sərhəd bölgələrində dinc əhalini vahimədə saxlamaqdır. Eyni zamanda məqsədlərdən biri də sərhəddə təxribat törədib əks tərəfdən atəşkəsin pozulmasını KTMT - nin üzvü olması ilə əlaqələndirməyə cəhd etməkdir.

***- İki yaşlı Zəhranın öldürülməsinin ardınca 15 yaşlı azərbaycanlı gəncin yaralanmasına baxmayaraq, ATƏT-in Minsk Qrupu həmsədrləri və digər beynəlxalq təşkilatlar Ermənistana qarşı ciddi bir ittiham irəli sürmürlər. Bunun səbəbi nədir?***

- Səbəb problemin həllinə ikili standartlardan yanaşmadır. Əsasən, belə hallar olanda, Minsk Qrupunun həmsədrləri təmsil etdikləri dövlətlərin rəhbərlərinə, eyni zamanda, bütün üzvlərə bəyanatla müraciət etməli və müvafiq qərarlar qəbul edilməsi, Ermənistana təzyiq edilməsi mexanizmini göstərməlidirlər. Füzulinin Alxanlı kəndində baş verən hadisədə Azərbaycan tərəfi buna nail oldu və ilk dəfə ATƏT-in Minsk Qrupu erməniləri təxribatçı adlandırdı. Düşünürəm ki, hər bir hadisədə istər XİN, diaspora komitəsi, media və sosial şəbəkələr, qeyri-hökumət təşkilatları bu problemə kompleks şəkilində yanaşmalı və bəyanatların verilməsinə nail olmalıdırlar. Əks halda, ikili standartlarla üzləşməli olacaqlar. Erməni lobbisi və anti-Azərbaycan qüvvələr də bundan sui-istifadə edirlər.

***GÜLYANƏ***



**İLHAM**

# Əbləhlərin rəqsi

***Həyat - mahnıdır, nəqarəti isə - ölüm.***
*Viktor Hüqo*

Sayından, yaşadığı coğrafi ərazidən asılı olmayaraq hər bir xalqın, millətin özünün milli dəyərləri, adət-ənənəsi və öznəməxsus mədəniyyəti var. Bu dəyər sisteminin fərqli olması isə təbiidir. Çünki məhz bu xüsusiyyətlər xalqları digər xalqlardan ayıran başlıca amildir. Formalaşan və daim inkişafda olan dünyamızda Azərbaycan xalqının da dilindən, dinindən, musiqisindən, folklorundan, himnindən, gerbindən, bayrağından tutmuş özünün dünya şöhrətli şəxsiyyətlərinə və fikir adamlarına qədər fəxr ediləsi milli dəyərləri mövcuddur. Amma razılaşaq ki, dünyada baş verən yeniliklər, müasir dövrün tələbləri bizdə də ortaya "bic"lərin, ağıldan kasad, dildən iti məxluqların çıxmasına gətirib çıxarır. Yalnız Azərbaycanın şou əhlinin düşük, axmaq hərəkətlərinə, yersiz, utanc gətirən danışıqlarına fikir versək, haqlı olduğum məlum olar. Hətta dodaq altında "əhsən" deyənlər də tapılar. Deməli, oturub bir qədər fikirləşəndən, saf-çürük edəndən sonra, bu qənaətə gəlirsən ki, babalarımız, doğrudan da, müdirik olublar. Dediklərinə, yazdıqlarına qulp qoymaq, məna axtarmaq nadanlıq olar. Bu baxımdan, "Utanmasan, oynamağa nə var" məsəlini də babalarımız heç də səbəbsiz yerə atalar misalına çevirmədiklərini qənaətindəyəm. Həqiqətən də, bir də görürsən ki, bir işə bir insanın daha cox haqqı olduğu halda, o insan abrına, həyasına, başlıcası qüruruna, mənliyinə sığışdırıb, o haqqı olan işə əl uzatmır. Amma sırtıq, abırsız və savadsız birisi haqqı olmayan o işə daha çox iddia edir, əksər hallarda da uğur qazanır. Bəlkə də, bu kimi hallara görədir ki, dahi Üzeyir Hacıbəyli "İstedadlılara arxa durun, onların ucalmalarına kömək edin, istedadsızlar onsuz da özlərinə yol tapacaqlar" deyə bildirmişdir. Bu gün şou əhli arasında elə mütrüblər var ki, onların əməllərindən cəmiyyət heç də xoşlanmır. O gün Aygün Kazımova ekvatoru iki dəfə yarıb keçən Nil çayının keçdiyi məsafə qədər yol keçib, fırlanıb geri qayıtdıqdan sonra, telekanilzasiyaların birində lövbər salaraq sonra hapa-kopa basıb ki, guya ərəb şahzadələrindən biri ona beşinci arvadı olmasını təklif edib. Sonra da gözlərini döyə-döyə ona qulaq kəsilən aparıcının bərəlmiş gözlərinin içinə deyib ki, şahzadə ona var-dövlətinin hamısını da olmasa, yarısını verməyə hazırdır. Verilişdən sonra pərdəarxası Aygün - aparıcı söhbətinin nədən getdiyini demək çətin olsa da, hər halda, bir-birinə xahişlər, minnətlər şübhəsiz olub.

Saytların birində belə bir başlığa rast gəldim: "Bomba partlayacaq". İnanın, yazını tıklayıb oxuyana qədər hansı narahatlıqlar keçirdiyimi dillə təsəvvür etmək mümkün deyil. Oxuyandan sonra məlum olur ki, Rəqsanə adlı mütrüb lüt şəkillərini çəkib paylaşmaqla, bomba partlatmağa hazırlaşır. Çox əsəbiləşdim. Düşündüm ki, bu mütrübün yiyəsi, yeyliyi, adamı yoxdurmu ki, qulağından tutub başına bir qapaz vurub, başa salsın ki, bu cür rüsvayçı, biabırçı əməllərdən əl çək. Heç olmasa, sponsoru onu başa sala bilər ki, "bax aa, pulunu kəsərəm. Belə zadlar, belə şeylər eləmə". Özü cəhənnəmə, getdiyi yolda, gəzdiyi ağac budaqlarında qızını da budaq-budaq gəzdirir. Bu günlərdə sosial şəbəkələrdə Rəqsanənin qızının müxtəlif pozalarda çəkilmiş şəkillərini görəndə, ermənıyə bir daha lənətlər yağdırdım. Çarəm nədir. Gücüm və sözüm ancaq açıq şəkildə ermənini söyməyə çatır. Bu, heç də "qızım, sənə deyirəm, gəlinim eşit" misalı kimi başa düşülməsin. Bu yerdə bədahətən beynimdə şairlər sayağı bir şeir canlandı. Deməli, söhbət belədir:

Müğənni var şoularda əndamları yellənir,
Viski içib, rakı içib, şeyxlər ilə şellənir,
Sonra vəhşi qəhqəhəylə hırıldayıb dillənir,
Biz zirvədən enmərik heç keçsə neçə illər də,
Bizim klip-şedevlər dolaşacaq dillərdə.

Röya Ayxan bir ulduzam deyir qütbdə teyxa mən,
Aygün deyir gedəcəyəm tezlik ilə şeyxə mən,
Rəqsanə də: "Doğmaq üçün yollanıram Qaxa mən,"
Bunlar Qərbdə bir-biriylə etməkdədilər bəhsi,
Hər birisi tutmaqdadı xoşbəxtliyin zirvəsin.

Bir sözlə, bu şou düşərgəsində hər cür əlləm-qəlləm fırıldaqlara, yalan-palana rast gəlmək olur. Kim kimi tutdu orda soyur, bir qədər də dərinə gedib soyundurur. Aldatmaq, pul atmaq da ki, peşələrinə çevrilib. Manaf Ağayev adlı müğənni əsəbi halda Damla adlı həmkarını fırıldaqda, dələduzluqda günahlandırıb. Yəni Manaf Ağayev Cinayət Məcəlləsinin 178.1 maddəsini birbaşa Damlanın üzünə oxuyub. Nədi-nədi, Damla adlı mütrüb 500 manat beh alıb ki, Manafın arxasınca düşüb toya gələcək və şıllaq atıb, cəh-cəh deyəcək. Şövqə gələn içkili məclis iştirakçıları da Damlanın hüsnü-camalına vurğun olub, ciblərini açıb şabaş paylayacaqlar. Amma sən saydığını say, gör Damla mütrüb nə sayır?! Damla mütrüb başqa toy məclisindən daha çox qonorar təklifi aldığından, Manafın ardınca toya getməkdən imtina edib. Heç bu barədə özünə əziyyət verib, gözü yolda qalan Manafı məlumatlandırmayıb da. İndi Manaf biçarə oturub, Məşədi İbad demişkən, "Damlanın 500 manatı cəhənnəmə, bəs mənim 8 min manatım hara getdi?!" deyib dizinə döyüb ağlayır. Bu yerdə yadıma "Yeddi oğul istərəm" filmində Mirpaşanın Qasıma dediyi "bu artistlər nə həyasız tayfa olurlar" ibrətamiz sözləri düşdü. Fikirləşdim ki, dahi sənətkarımız obrazın dili ilə bu sözləri elə şou əhlindəki abırsız mütrüblər üçün deyib.

Qısası, Ədalət Şükürovdan, Faiq Ağayevdən, Röya Ayxandan, Mətanət Əsədovadan, Xatundan, Pişik Güneldən, Səidə Sultandan və bu kimi digər şou əhlinin mütrüblərindən, onların iyrənc felindən yaza, saz götürüb, oxuya bilməsəm də, dastan demək olar. Amma nəticəsi olmayacağı şübhəsizdir. Çünki artıq onlar öz yollarını seçiblər.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 avqust 2017-ci il

SİYASİ RAKURS

# Əli Kərimli - müxalifətin Ostap Benderi

## Yaxud "velikiy maxinator"un kirli maxinasiyaları - faktlar, dəlillər, sübutlar!

**Əli Kərimli barədə cəbhəçi, AXCP-nin Sabirabad şöbəsinin fəallarından sayılan Paşa Umudovun ortaya çıxardığı faktların ardınca, bir daha bəlli oldu ki, cəbhə sədri, məhz "AXCP brendi" adı altında maliyyə maxinasiyaları ilə məşğul olan dələduzdan başqa bir kəs deyil. Onu da qeyd edək ki, Ə.Kərimlinin ifşaları çoxaldıqca, onun sosial şəbəkədəki zombi dəstəsi daha da aqressivləşir, bu isə, belə qənaətə gəlməyə zəmin yaradır ki, ortaya çıxan hər bir fakt dəqiqdir, Kərimli isə, bu faktlar qarşısında aciz qalıb. Bu baxımdan, daxilindəki aqressiyasını gizlədə bilmir.**



### Necə deyərlər, "biz mehriban ailəyik..."

Lakin elə də uzağa getməyərək, biz AXCP sədri barədə daha bir faktı araşdıra bilərik. Məsələn, dəlil və sübutlardan biri də budur ki, Ə.Kərimli indiyə qədər əldə etdiyi qanunsuz vəsaitləri saxta yollarla əldə edib. Misal üçün, bir müddət öncə bəlli olmuşdu ki, Ə.Kərimlinin, onun oğlu Türkel Kərimlinin, əmisi oğlu Tofiq Kərimlinin, qaynı Elnur Seyidovun, baldızı Aytən Rafik qızı Seyidovanın və Kərimlilər ailəsinin digər üzvlərinin adları uzun müddət bank maxinasiyalarında hallanıb. Necə deyərlər, "biz mehriban ailəyik"...



Bu bank materiallarının təhlili isə, ortaya həddən artıq arzuedilməz mənzərə çıxarır. Məlum olur ki, Ə.Kərimlinin özü və qohumları 2012-ci il oktyabrın 30-dan 2013-cü il iyunun 13-dək olan müddətdə banklardan fantastik görünən məbləğdə - 8 milyon 603 min 364 manat pul çıxarıblar, özü də nağdlaşdırılmış şəkildə! Belə ki, Kərimlilər və Seyidovlar banklardan, praktiki olaraq, 2 il ərzində, müntəzəm olaraq, nəhəng məbləğlərdə pul çıxarıb, iriməbləğli maliyyə əməliyyatları aparıb, böyük həcmdə pul kütləsini qəbul edib və ya iri məbləğlərdə vəsaiti harasa göndəriblər və spz yox ki, burada istər-istəməz, Ə.Kərimlinin cavab verməyə, sadəcə olaraq, borclu olduğu suallar əmələ gəlir. Bu pullar haradandır? Onların mənşəyi haradandır? AXCP sədri banklardan bu qədər pulu nağd şəkildə çıxarmağa necə nail olub? Nağdlaşdırılaraq çıxarılmış maddi vəsaitlər hara xərclənib? Əslində, burada siyasi korrupsiyanın olması göz önündədir.

İlk növbədə, sıravi cəbhəçilərin maaşlarını verməyən, eləcə də, üzvlük haqları toplayaraq, onların ailələrinin boğazlarından kəsən Kərimli, üstəlik, əldə etdiyi maddiyyatı heç də partiyasına xərcləmir. Uzağı, onun tələsinə tuş gələrək, həbs edilmiş insanların ailələrinə 300 manat ödəməklə, işini bitmiş hesab edir. Halbuki P.Umudovun da dediyi kimi, Ə.Kərimli və bir neçə nəfər ətrafı istisna olmaqla, partiya fəalları yazıq durumdadırlar, təşkilatın yerli strukturları, adları olub - özləri yox səviyyəsindədir. Üstəlik, partiyanın mətbu orqanı olan "Azadlıq" qəzetinin nəşri uzun müddət Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun pulları hesabına həyata keçirilirdi və sonda Kərimli bu borcları da ödəməyərək, onun bağlanmasına səbəb oldu. Əbəs yerə deyil ki, bu gün adıçəkilən fəaliyyətsiz qəzetin baş redkatoru Qənimət Zahid Ə.Kərimlini satqın və xəyanətkar adlandırır, onu müxalifətin 1 nömrəli düşməni hesab edir!

### 4 milyon 680 min manat nağd pul!

O cümlədən, ortada olan faktlardan biri də budur ki, Ə.Kərimli 2005-ci ildən bəri rəsmən heç yerdə işləməyib, yəni parlamentin deputatı olub və sonra işsiz qalıb. Başqa tərəfdən, bizneslə məşğul olmadığını da deyir. Eləcə də, iddia edirlər ki, heç vaxt beynəlxalq fond və təşkilatlardan qrant almayıblar(?!). Yaxşı, bəs bu qədər maliyyə vəsaiti Ə.Kərimliyə hansı mənbələrdən gəlir? Hələ 2012-ci il, martın 27-də Ə.Kərimlinin qaynı Elnur Seyidovu həbs edilərkən, bu sualların bir qisminə cavablar tapılmışdı. Belə ki, E.Seyidov keçmiş "Texnikabank"da yüksək post tuturdu. O, ta həbs olunduğu günə qədər bu bankın ən böyük filialı sayılan Yasamal filialının rəis müavini vəzifəsini daşıyırdı. E.Seyidov 2011-ci il yanvarın 28-dən 2012-ci il fevralın 24-dək banklardan 4 milyon 680 min manat nağd pul çıxarmışdı.

Lakin bunlar da, hələ hamısı deyil. Ə.Kərimlinin hələ heç bir yerdə işləməyən və gəlir bəyannaməsində göstərilmiş qazanc mənbəyi olmayan yeniyetmə oğlu Türkel Kərimli 20 gün ərzində - 2011-ci il sentyabrın 26-dan oktyabrın 17-dək olan müddət ərzində "Texnikabank"da 75 min (!!!) funt-sterlinq məbləğində maliyyə əməliyyatı aparmışdı.

İndi Sabirabad cəbhəçisi P.Umudov öz etirazlarını bildirərkən, Ə.Kərimlinin ailəsinin Britaniyada kök salıb kef çəkdiklərini deyərkən, bilməlidir ki, onun az qala "etiqad" etdiyi "lideri", əslində, dələduzdan da artıq bir fərddir ki, belələrinə məşhur "12 stul" filmindəki OSTAB BENDER - "VELİKİY MAXİNATOR" deyirlər.

### O özünü müxalifətin prezidenti kimi hiss edir?

Daha bir fakt! Bank sənədlərindən də, göründüyü kimi, Ə.Kərimlinin baldızı Aytən Seyidova da çox zəngin adamdır. A.Seyidova 2005-ci il parlament seçkilərindən dərhal sonra qəfildən, tamamilə gözlənilməz şəkildə haradansa 500 min avro pul tapır və nəhəng məbləği ifadə edən həmin əskinaszları "Texnikabank"ın Yasamal filialında banka qoyur. Bir neçə aydan sonra onun hesabına daha bir tranş daxil olur. Bu dəfə nisbətən az - "cəmisi" 31 min manat. Belə təsəvvür yaranırdı ki, keçmiş "Texnikabank" "aparıcı müxalifət partiyası liderinin", praktiki olaraq, ailə podratına götürdüyü maliyyə təsisatı imiş...

Bu arada Ə.Kərimlinin müavini olmuş, hazırda alternativ AXCP yaradaraq, bu partiyaya sədrlik edən Razu Nurullayevin də açıqlaması maraqdoğurucudur. Hələ 2015-ci ildə Nurullayev deyirdi ki, Ə.Kərimli müxalifətdə məmur həyat tərzi yaşayır, hətta özünü müxalifətin prezidenti hesab edir. R.Nurullayev deyib ki, müxalifətin prezidenti olmaq, müxalifətdə qalmaq və birinci olmaq Ə.Kərimliyə sərf edir:

"Onun həyatı normaldır, əgər bu gün bəzi Azərbaycan məmurlarının övladları xaricdə ən gözəl universitetlərdə təhsil alırlarsa, Ə.Kərimlinin də övladları xaricdə təhsil alırlar. Nəyə görə deyirsiniz ki, o, məşəqqətli həyat yaşayır? Bəli, ofisi yoxdur, amma bəlkə də bu özü də elə oyunun bir hissəsidir..."

Beləliklə, hər şey tam çılpaqlığı ilə aydındır. Müxalifətin Ostap Benderi, yaxud da "veliki maxinatoru" heç ona ünvanlanmış iradlı sualları və ittihamları cavablandırmasa da olar. Nə qədər də olmasa, o, əlahəzrət məhkəmə qarşısına çıxarkən, bütün bu suallara cavab verməli olacaq!

**Rövşən NURƏDDİNOĞLU**

---

## Bir qədər sonra müxalifət tarixin zibilliyindən boylanacaq

*Təhmasib Novruzov:*

*"Əli Kərimlinin əməlləri siyasi dələduzluq adlandırıla bilər "*

**Son günlərin diqqətçəkən mövzularından biri də müxalif partiyaların-dan istefaların baş verməsi və istefa verənlərin ciddi müzakirələrə səbəb olan açıqlamalar verməleridir. AXCP fəallarından olan Paşa Umudov adlı birisinin Əli Kərimlinin ünvanına səsləndirdiyi ittihamlar geniş marağa səbəb olub.**



Çünki P.Umudov cəmiyyət üçün bir o qədər maraq kəsb etməsə də, yeni ciddi ittihamlarla çıxış edib. Partiya fəalı açıq şəkildə Ə.Kərimlinin patiya sədri deyil, böyük hoqqabaz və dələduz adlandırıb. P.Umudov Ə.Kərimlinin ailə gəlirlərinin və xərclərinin böyük məbləğləri əhatə etdiyini söyləyib. Bu da Ə.Kərimlinin ifşa edilməsi yönündə növbəti faktlar yaradıb. "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Paşa Umudovun açıqlamasından öncə də Ə.Kərimli haqqında ittihamlar və yeni faktlar eşitmişik: "Biz də dəfələrlə satqın və xəyanətkar mövqe sərgiləyən Ə.Kərimlinin fəaliyyətinin siyasi etika qaydalarına sığmadığını demişik. Ə.Kərimlinin əməlləri siyasi dələduzluq adlandırıla bilər. Əsas məsələ burasındadır ki, hər zaman Ə.Kərimli özünün şəxsi ambisiyalarını ön planda tutur. Demək olar ki, məhz Ə.Kərimlinin şəxsi maraqlarıdır ki, bu gün AXCP həlli mümkün olmayan çıxılmaz bir vəziyyətdədir".

"Cəbhəçi fəalın açıqladığı məlumatda Ə.Kərimlinin ailəsinin böyük məbləğdə pullara sahib olduğunu və övladlarının maliyyə vəsaiti hesabına xaricdə təhsil aldığını qeyd edib. Sizcə, bu cür vəsaiti Ə.Kərimli haradan və necə əldə edir" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, hər kəsə məlumdur ki, Ə.Kərimli xaricdəki anit-Azərbaycan qüvvələrindən maliyyə vəsaiti alaraq, ölkə daxilində nə isə bir xoşagəlməz vəziyyət yaratmaq istəyir: "Xaricdə olan qüvvələr Ə.Kərimliyə külli miqdarda maliyyə vəsaiti verir. Müxalifət düşərgəsini təmsil edən bu kimi şəxslər, məhz QHT-lər vasitəsi ilə xaricdəki fondlardan kifayət qədər maliyyə yardımları alırlar. Bu pullar da birbaşa Ə.Kərimlinin cibinə axır. Bu, həmin pullardır ki, Ə.Kərimlinin övladları İngiltərədə təhsil alır. Ailəsi də uzun müddətdir ki, Londonda yaşayır. Xaricdə olan həmin qüvvələr də pul qarşılığında bu şəxsdən öz istəklərini həyata keçirməyi tələb edirlər. Amma onların nə istəmələrindən asılı olmayaraq, heç vaxt həmin xarici qüvvələr öz istəklərinə çatmayacaqlar".

"Ümumiyyətlə, Ə.Kərimli, İ.Qəmbər A.Hacılının ifşa edilməsi istiqamətində sıravi müxalifətçilər tutarlı faktlar və yetərli məlumatlarla çıxış ediblər. Çox maraqlıdır ki, bu cür məlumatlara sözügedən şəxslər münasibət bildirmirlər. Bununla bağlı nə deyə bilərsiniz" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, bu şəxslər onların əleyhinə danışılan hər hansı bir sözü gündəmdən çıxarmağa çalışırlar: "Onların özlərinin susmaları da bu məqsədə xidmət edir. Yəni həmin adları çəkilən şəxslər çalışırlar ki, bu sözlər çox hallanaraq danışılmasın və dərinliyə getməsin. Yəni bu cür sözlərin unudularaq yaddan çıxması üçün hər şeyi edirlər. Müxalifət özlərinə sərf edən məsələləri, yəni reallığı özündə əks etdirməyən məsələləri gündəmə gətirərək, özlərinin şəxsi maraqları üçün istifadə etməyə çalışır. Amma özləri haqqında olan reallıqlar gündəmə gələndə, var gücləri ilə bu cür məsələləri ört-basdır etməyə uğursuz cəhdlər göstərirlər".

**GÜLYANƏ**

# XX əsrin əvvəllərində İranın Azərbaycan dövlətçiliyinə və müstəqilliyinə münasibəti

***Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına İranın münasibəti birmənalı olmamışdır. AXC öz İstiqlal Bəyannaməsini elan edərkən, Arazdan şimaldakı ərazilərdə birincisi, Azərbaycan dövlətinin yaranması İranı narahat etdi.***

Tehran Azərbaycan Respublikasının Cənubi Azərbaycanı İrandan ayıracağını düşündü.

İranın şübhələrinə son qoymaq üçün AXC hökuməti xaricə göndərilən sənədlərdə "Qafqaz Azərbaycanı" ifadəsini işlətməyə məcbur oldu.

İranda inqilabçı qüvvələr türk-müsəlman respublikasının yaranmasını alqışlasalar da Azərbaycan adını seçməsini yeni dövlətin İrana birləşmək arzusunda olduğunu görmək istədilər, əks-halda iranlıların həmin respublikanın Azərbaycan adlanmasına qarşı çıxa bilərdilər.

Vaxtilə cənubda Azərbaycan dövlətinin başçısı Xiyabani Azərbaycanı İranın tərkib hissəsi sayırdı. Azərbaycan tarixçisi Yaqub Mahmudov yazır: "Yeri gəlmişkən, Birinci Dünya müharibəsi dövründə Azərbaycan xalqı şimalda olduğu kimi, cənubda da öz milli dövlətçilik ənənələrini, dirçəltmək üçün ayağa qalxdı. Yurdumuzun bu hissəsində də dövlətçiliyimiz dirçəldildi. Cənubi Azərbaycanda müstəqil və demokratik Azadıstan dövləti - "Azadıstan məmləkəti" quruldu (1920). Şeyx Məhəmməd Xiyabani Azadıstan Milli Hökumətinin başçısı oldu. Ölkənin şimalında olduğu kimi, cənubunda da geniş milli-demokratik islahatlar keçirilməsinə başlandı. Beləliklə, Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı həm şimalda, həm də cənubda özünün qədim dövlətçilik ənənələrini yenidən dirçəldə bildi, müstəqil yaşamağa layiq və qadir xalq olduğunu bir daha sübuta yetirdi. Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da parlamentli respublika tipli demokratik idarəçilik qaydalarının tətbiq olunmasına başlandı. Bu, Azərbaycan xalqının çox böyük tarixi nailiyyəti idi".

Azərbaycanın paytaxtı Bakıda keçirilən Azərbaycan-İran konfransında hər iki dövlət arasında siyasi, iqtisadi və ticarət əlaqələrinin yaradılması qərara alındı. İran hökuməti Azərbaycanın istiqlalını tanıdı, Tehranda Azərbaycan, Bakıda İran səfirliyi açıldı.

ABŞ tədqiqatçısı Tadenş Svyatoxovski Azərbaycanın xarici siyasətinin İran və Türkiyə kimi tarix tarixən aralarında spesifik əlaqələri olan bu iki ölkə ilə manevr etmək sərbəstliyini saxlaya bildiyini göstərir.

Lap başlanğıcda münasibətlərdə anlaşılmazlıq yaransa da, Demokratik Respublika diplomatiyasının ən əhəmiyyətli təşəbbüsü İranla əlaqələrin yaradılmasından ibarət oldu. Versalda Tehran hökuməti "Rus müharibəsindən sonra İrandan zorla alınmış şəhər və vilayətlərə" öz ərazi tələblərini irəli sürdü. İran öz əraziləri dedikdə, Dağıstanın bir hissəsi də daxil olmaqla, bütünlüklə, Azərbaycan Respublikasını nəzərdə tuturdu. İran Dünya müharibəsi iştirakçısı olmadığından, onun konfransda iştirak etmək xahişi qəbul edilməmişdi və İranın əsas nümayəndəsi Əliqulu xanın memorandumunu Qərb diplomatları mənasız bir hərəkət kimi qarşıladılar. Azərbaycanın konfransdakı baş təmsilçisi Topçubaşov Bakıya yazdığı məlumatda qeyd edirdi ki, İran nümayəndəliyinin özü tələblərinin konfransda eşidiləcəyini gözləmirdi. Sonra Topçubaşov İranın niyyətlərinin dərin mənasını açıqlayan bir qeydini əlavə edirdi: "Onlar elə hey deyirdilər ki, biz onlarla birləşməliyik, onlar bunu çox arzulayırlar və hər zaman bizim ziyalılarımızdan ağızdolusu danışırlar, çünki onların özlərinin belə ziyalıları yoxdur".

Bununla belə, Tehranın irəli sürdüyü tələblər İranla əlaqələrdəki diqqətəlayiq irəliləyişə mane olmadı, bu isə, iki ölkə arasındakı əlaqələrin zəruriliyinə bir sübut idi. Respublika təmsilçisi kimi xarici işlər nazirinin müavini Adil Ziyadxanov Tehranda onun üçün ayrılmış iqamətgahda oturdu. İrandan isə İran siyasətinin yeni ulduzu Seyyid Ziya əl-din Tabatabayinin başçılıq etdiyi missiya taariflər, poçt xidməti və ticarətlə bağlı razılığa gəlmək üçün danışıqlar aparmaq məqsədilə Bakıya yola düşdü. Bu arada Azərbaycan Respublikası ilə İran arasında konfederasiya yaradılmasının münasibliyi haqqında danışıqlar aparılmaqda idi. Həmin bu ideya hər iki tərəfin başlıca istəklərinin yerinə yetməsi üçün geniş üfüqlər açmış olurdu: İran Rusiyaya təslim etdiyi torpaqları geri alacaqdı, Bakı isə Təbrizə daha yaxın olacaqdı. 1919-cu il avqustun 9-da imzalanan İngiltərə-İran razılaşması hər iki ölkə arasındakı dostluq münasibətlərinin bərpasında növbəti stimul oldu. Aydın oldu ki, iki milyon funt sterlinq borc əvəzində, Britaniya məsləhətçilərinin mərkəzi hökumətin mühüm təşkilatlarına təyin olunmasını nəzərdə tutan həmin bu razılaşma İranı, faktiki olaraq, himayə altına salmış oldu.

Əksər iranlılar vətənpərvərcəsinə öz hiddətlərini bildirdikləri halda, Bakı azərbaycanlıları Londonun İrana olan yeni marağını təzədən Britaniya kölgəsində daldalanmaq kimi qiymətləndirdilər. Bu, həqiqətə çox uyğun idi, çünki müqaviləyə olan əlavəyə görə, "Britaniya hər iki tərəfin razılığı alındığı yerlərdə İran sərhədinin nizamlanmasında" yaxından iştirak edəcəkdi.

Birgə İran-Azərbaycan Komissiyasının üzvləri oktyabrın 29-u və noyabrın 1-i arasında Parisdə görüşdülər və bir sənəd hazırladılar. İranın xarici işlər naziri Nəsrəddin Dövlə sonradan onu Britaniya hökumətinə təqdim etdi. Qafqaz Azərbaycanın Rusiyadan hər hansı bir formada ayrılmasını və onun tam müstəqilliyini bir daha təsdiqləyən memorandum İranla gələcək əlaqələri müəyyənləşdirdi:

III maddə. Azərbaycan Demokratik Respublikası öz qonşusu İran imperiyası ilə konfederasiya formasında siyasi-iqtisadi əlaqə yaradır ki, bu federasiyanın prinsipləri, forması və onu idarə etmək üsulları İran və Azərbaycan hökumətləri tərəfindən birgə müzakirə olunacaq, tənzimlənmiş olacaq və təsdiq üçün hər iki ölkə parlamentlərinin ixtiyarına veriləcək. Lakin bundan sonra hər iki ölkənin xarici əlaqələri birgə aparılacaq.

IV maddə. Yuxarıda göstərilən (I və II maddələr) məqsədlərə çatmaq əzmi ilə Azərbaycan Respublikası İrana bənzər olaraq tanınmaq, müstəqilliyini saxlamaq, ərazi toxunulmazlığına qarşı edilən hər cür cəhdlərdən qorunmaq, həmçinin, siyasi, iqtisadi və hərbi gücünün artması üçün Böyük Britaniya tərəfindən dəstəklənmək arzusundadır.

Bakı rejimi üçün bu planın ən mühüm cəhəti ondan ibarət idi ki, Britaniyanın Azərbaycanla İranı eyni cür müdafiə edəcəyi güman edilirdi. Bunun eyni olaraq, azərbaycanlılar belə hesab edirdilər ki, İranı Britaniyaya bağlayan tellər olmasaydı, onlar zəif İranla birləşməyə az maraq göstərmiş olardılar. Britaniyalılara gəlincə, onlar Nəsrəddinin oyun oynadığını başa düşürdülər:

"Bizim köməyimiz və havadarlığımız sayəsində İran, Bakı daxil olmaqla bütün Azərbaycan Respublikasını orbitinə çəkmək istəyir. O, Parisdə ayrı-ayrı Azərbaycan nümayəndələrindən, səthi də olsa, deklorasiya əldə etməyə müvəffəq oldu və onun kimlə ixtilafda olduğunu bilmək çox maraqlı olardı. Belə ki, Azərbaycan nümayəndələrinin siyasi tərkibi müxtəlifdir".

Xarici işlər üzrə katib lord Kurzon Azərbaycanda Britaniyanın başlıca marağının, əslində, nədən ibarət olduğunu özünün məxfi qeydlərində açıb göstərdi:

"Əgər İrandakı nəzarətimiz, həqiqətən, güclü olarsa, tədricən bu nəzarəti, Bakı da daxil olmaqla, Xəzərin hər iki sahilinə münasib bir formada yaymaqla xeyli üstünlük qazanmış olarıq. Lakin bu istiqamətdə hal-hazırkı anda atılan hər hansı addım Denikinlə, ya da gələcəkdə hər hansı quruma malik olacaq Rusiya, hətta bolşevik Rusiyası ilə münasibətlərin, şübhəsiz, dərhal və islah olunmayacaq bir şəkildə korlanması demək olardı. Öz müstəqilliyini elan etmiş Rusiya imperiyasının ayrı-ayrı tərkib hissələrinin arzu və tələblərinə şərik olmaq bir şeydir, lakin qonşu Şərq qüvvəsi tərəfindən əvvəlki Rusiya ərazisinin tıtulmasında yardımçı olmaq tamamilə başqa bir şeydir. Mən heç cür inana bilmərəm ki, Bakıda İran imperiyası ilə birləşməyə can atan xalqın, ya da ayrı-ayrı adamların səmimi istəyi olsun. Mən elə ölkə təsəvvür edə bilmərəm ki, İranın hakimiyyəti və yarıtmaz inzibatçılığı altına keçməyə maraq göstərsin".

Britaniya himayəsinin yenidən qaytarılması üçün göstərilən bu gizli cəhd, İngiltərə-İran razılaşmasına qarşı narazılıqlar nəticəsində, sonralar zəiflədi. Son nəticədə, Məclis bu razılaşmanı təsdiq etməkdən boyun qaçırdı. Hər halda, bu ləngimə Azərbaycan Respublikası və onun cənub qonşusu arasındakı əlaqələrin durmadan inkişafına ciddi şəkildə xətər yetirə bilmədi. Həmin prosesin ən yüksək zirvəsi 1920-ci ilin martında iki qonşu dövlət arasında dostluq və ticarət haqqında müqavilənin imzalanması oldu. Keçmiş rus diplomatı V.F.Mayevski tərəfindən Bakı kabineti üçün irəli sürülən gizli memorandumda bu əlaqələrin sürətlə genişlənməsi məsləhət görülürdü və aşağıda sadalanan səbəblərə uyğun olaraq, bunun çox böyük əhəmiyyəti göstərilirdi:

"Şimali İranın əhalisi Azərbaycan əhalisi ilə eynilik təşkil edir. Şimali İran daima bu ölkəyə güclü meyil göstərib və sıx iqtisadi əlaqələrin inkişafı nəticəsində, daha çox meyil göstərəcəkdir... Güman etməyə əsasımız var ki, qarşılıqlı əlaqələr zamanı Azərbaycan mərkəzi rol oynayacaqdır. Azərbaycan ağılsız siyasətə uyub, özünü parlaq gələcəyindən məhrum etməz".

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Ağlamaq vücudu da rahatlaşdırır

Bəzən kədərdən bəzən isə sevincdən gözlərimiz yaşla dolar. Cəmiyyətdə ağlamağı bir zəiflik əlaməti kimi düşünənlər olsa da mütəxəssislər ağlamağın ən azı sevinmək və ya gülmək qədər normal bir proses olduğunu və insan orqanizmi üçün bəzi faydasının mövcudluğunu vurğulamışlar.

Bəzən insan tənha bir otağa çəkilərək doyunca ağlamaq ürəyini boşaltma ehtiyacı hiss edir. İngilis professoru Dr. Leslie Beth bu kimi hallara belə izah vermişdir.

Ağlamaq psixoloji rahatlama ilə yanaşı vücudun da rahatlamasına şərait yaradır. Göz yaşının müxtəlif növləri mövcuddur. Yaxınlığımızda hər hansı bir tüstü olarsa və ya yanımızda soğan soyarlarsa bu zaman gözlərimiz yaşara bilər. Araşdırmalar bu zaman əmələ gələn göz yaşlarının gözü hər hansı bir xarici təsirdən qorumaq üçün yaranmış refleks olduğunu və bu tip göz yaşlarını ağladığımız zaman yaranan göz yaşlarından biokimyəvi tərkibinə görə olduqca fərqli olduğunu göstərmişdir. Hislərimizin səbəb olduğu göz yaşları orqanızmi bəzi toksinlərdən qoruyur. Başqa sözlə orqanizmdəki zəhərli hormonların xaric olunması üçün ağlamaq faydalıdır.

# Zəka inkişafında unun faydası

UNICEF-in qida sektorunun eksperti Vilma Tyler, un ilə hazırlanan məhsulların uşaqların zəka səviyyələrində artım təmin etdiyini bildirib. Beynin davamlı qlükozaya ehtiyacı olduğundan taxıllardakı liflər bədəndə qlükozanı nizamlayır. Tərkibindəki B qrup vitaminlər sinir sisteminə müsbət təsir göstərir. Tyler, həmçinin vitamin və mineralların çatışmazlığından qaynaqlanan qidaların (mikro qidaların) və problemlərin bütün dünyanı maraqlandıran məsələlər olduğunu ifadə edib. Minerallar da vitaminlər kimi orqanizmdə düzgün fəaliyyət imkanı yaradır. Xüsusilə dəmir, fol turşusu, sink, A və D vitaminləri kimi qida əlavələrinin sağlam insanların yetişməsində xüsusi rol oynadığını bildirib.

**Qocalmağa əngəl olan 5 qida**

Xəstəlikləri bədəni qüvvədən salaraq yaşlanmağa səbəb olur. Buna görə hər şeydən əvvəl nizamlı və balanslı qidalanma da seçim edilməlidir. Həmin qidalar arasında meşə meyveləri, nar, sarımsaq, şokolad, avokado xüsusi fərqlənir.

**Meşə giləmeyvələri**

Bədəndə olan bir sıra xəstəliklər yaşlılığa səbəb olduğundan meşə meyvələri yaxşı seçimlərdən biridir. Həmin qidalara böyürtkən, moruq, qara üzüm, qaragilə kimi antioksidant tərkibli meyvələr daxildir. Bu meyvələr dərini qorumağa kömək edir.

**Nar**

Qırışların meydana gəlməsinə maneə törədərək tərkibində olan C vitamini ilə dərini sağlam edir.

**Sarımsaq**

Sarımsaq bir çox xəstəlikləri qoruyan bir antioksidantdır. Həmçinin bəzi dərmanlardan təsirli olduğu, qanı durultduğu, xolesterolu azaltdığı bildirilir.

**Şokolad**

Kakao, sahib olduğu flavonoiddən ötəri, dərini günəşin zərərli təsirlərindən qoruyarkən eyni zamanda qan dövranını sürətləndirir.

**Avokado**

Avokada meyvəsi E vitamini ilə zəngindir. Bu meyvə şişləri önləyir, dəri üçün sağlam komponentlər saxlayır. Başqa sözlə, dəri gözəlliyində geniş istifadə olunur.


# ELAN

"F.S" ASC səhmdarlarını 8 sentyabr 2017-ci il tarixdə saat 11:00-da cəmiyyətin növbədənkənar ümumi yığıncağına dəvət edir.

Gündəlik məsələ:

1. Səhmdar O.İbrahimov tərəfindən söküb-tikdiyi sahələrin balansa alınıb-alınmaması.

2. 30 mart 2017-ci il yığıncağında qarşıya qoyulan məsələlərin nəticələri.

Yığıncaq Bakı şəh., Dərnəgül qəs., 1999-cu məhəllə ünvanında keçiriləcək.

"F.S." ASC İdarə Heyətinin sədri S.M.Osmanov




## "Qarabağ" - "Kopenhagen" oyununun biletləri satışa çıxarılır




Futbol üzrə UEFA Çempionlar Liqasının pley-off mərhələsinin ilk matçları çərçivəsində keçiriləcək "Qarabağ" - "Kopenhagen" (Danimarka) oyununun biletləri satışa çıxarılır. SİA-nın məlumatına görə, azarkeşlər sabah saat 10:00-dan etibarən biletləri Tofiq Bəhramov adına Respublika stadionun kassalarından əldə edə bilərlər. Biletlərin qiyməti nömrəli sektorlara görə 1, 2, 3, 5 və 10 manat, VİP sektoruna isə 50 manatdır. Qeyd edək ki, "Qarabağ" - "Kopenhagen" matçı avqustun 15-də saat 20:00-da başlayacaq.



## "Fənərbaxça" Roberto Soldadonun transferini rəsmiləşdirib

"Fənərbaxça" "Vilyarreal"ın futbolçusu Roberto Soldadonun transferini rəsmiləşdirib. SİA-nın məlumatına görə, 32 yaşlı hücumçu ilə 2+1 illik müqavilə imzalanıb. "Fənərbaxça"nın ispaniyalı futbolçunun transferi üçün qarşı tərəfə 4.5 milyon avro ödədədiyi iddia edilir. Qeyd edək ki, R. Soldado ötən mövsüm "Vilyarreal"ın heyətində 10 oyunda 4 qol vurub.

## Arda Turan: "Yaşasın Türkiyə və Azərbaycan qardaşlığı"



Xəbər verdiyimiz kimi, Böyük Britaniyanın paytaxtı Londonda keçirilən atletika üzrə dünya çempionatının 7-ci günü Ramil Quliyev üçün uğurlu alınıb. Türkiyəni təmsil edən azərbaycanlı atlet 200 metr məsafəyə yarışda hamını qabaqlayıb. SİA-nın məlumatına görə, R.Quliyevin bu uğuruna futbol üzrə Türkiyə milli komandasının kapitanı, "Barselona"nın futbolçusu Arda Turan biganə qalmayıb. Sosial şəbəkədə R.Quliyevin Azərbaycan və Türkiyə bayrağı ilə olan fotosunu paylaşan Arda "Yaşasın Türkiyə və Azərbaycan və qardaşlığı" yazıb. Qeyd edək ki, Arda Turan vaxtilə "Atletiko"nun futbolçusu kimi Azərbaycana səfər edib.



## Azərbaycan idmançısı dünya çempionatında 5-ci olub

Böyük Britaniyanın paytaxtı Londonda keçirilən atletika üzrə dünya çempionatının yeddinci günü yekunlaşıb. SİA-nın məlumatına görə, çempionatda dörd idmançı ilə iştirak edən Azərbaycan millisinin son təmsilçisi də yarışı başa vurub. Üçtəkanla tullanmada çıxış edən Aleksis Kopello final mərhələsində medallar uğrunda mübarizə aparıb. Atletimiz 17 metr 16 santimetr nəticə göstərib. Bürünc medal qazanmağa cəmi üç santimetri çatmayan A.Kopello dünya çempionatında beşinci pillədə qərarlaşıb. O, daha iki idmançı ilə eyni nəticə göstərsə də, əlavə göstəricilərə görə onlardan birindən öndə, digərindən geridə yer alıb. Bununla da A.Kopello çempionatdakı təmsilçimiz Anna Skidan kimi beşinci yerlə kifayətlənib. Digər iki idmançımız - üçtəkanla tullanmada Nazim Babayev, 5 min metr məsafəyə qaçışda isə Hayle İbrahimov final mərhələsinə çıxa bilməyiblər.

## Bədii gimnastlarımız böyük həyəcanla yarış gününü gözləyirlər

İsti yay günlərinin son yerli yarışı məhz bədii gimnastlar arasında olacaq. Belə ki, ən zərif gimnastika növünün nümayəndələri avqustun 18-də baş tutacaq bədii gimnastika üzrə 24-cü Azərbaycan çempionatında qaliblər sırasında olmaq üçün böyük həyəcanla yarış gününü gözləyirlər. Gənclər və böyüklər yaş kateqoriyalarında yer alan 25 gimnast halqa, top, gürzlər və lentlə zövqlü musiqi və çətin elementlərin ahəngindən yaranan kompozisiyaları icra edərək, medallar uğrunda mübarizə aparacaqlar. SİA-nın xəbərinə görə, bu barədə Azərbaycan Gimnastika Federasiyasından məlumat verilib. Milli Gimnastika Arenasında keçiriləcək yarışlarda "Ocaq Sport" Klubu, Bakı Gimnastika Məktəbi, "Start" İdman Klubu, "Zirvə İnternational" İdman Klubu, eyni zamanda Gəncə, Qusar və Kürdəmir təmsilçiləri ilə yanaşı, ölkəmizdə təlim-məşq toplanışında olan xarici idmançılar da öz maraqlı çıxışları ilə izləyicilərin qarşısına çıxacaqlar. İştirakçıların yarış həyəcanını azaltmaq, eyni zamanda onlara dəstək olmaq üçün gələn tamaşaçılara maraqlı və xoş anlar yaşatmaq üçün hər zaman fərqli abu-havada təşkil olunan gimnastika yarışlarında bu dəfə də hədiyyəli müsabiqələr, əyləncəli fləşmoblar və son olaraq Qala-konsert baş tutacaq.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500